Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

15 AVQUST 2019-cu il

№ 141 (4039)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AZƏRBAYCAN-İRAN-RUSİYA ÜÇTƏRƏFLİ FORMATI YENİ SINAQDA... ERMƏNİSTAN ŞOKDA... AZƏRBAYCAN AÇAR MÖVQEDƏ...

■ səh. 8 ■

Prezidentin sosial islahatlar paketinin daha bir istiqaməti üzrə əməkhaqqı artımları başlayır

■ səh. 3 ■

"Transxəzər" kəməri ilə bağlı İran və Rusiyanın demarşı, Ermənistanın yersiz sevinci və Cənub Qaz Kəmərini doldurmaq perspektivi...

■ səh. 4 ■

"Transxəzər" qaz kəmərinə qarşı Rusiya və İranın konvensiyaya zidd mövqeyi nə ilə bağlıdır...

■ səh. 4 ■

Paşinyan Qarabağ mitinqindən sonra Los-Anceles erməniləri ilə məsləhətləşməyə gedir

■ səh. 10 ■

Bir neçə Azərbaycan radikalının Paşinyanın mitinqindən dividend almaq niyyəti - planı Əli Kərimli cızıb...

■ səh. 6 ■

İstehlak bazarında süni qiymət artımı dövlət orqanlarının diqqətində əsas məsələlərdən biri kimi...

■ səh. 14 ■

Lerikin kəndlərində qanunsuz çəpərləmələr və "həx" yığımı...

■ səh. 15 ■




■ səh. 5 ■

## «Transxəzər» qaz kəməri iki kəskin əks qərarın arasında - Rusiya və İran birləşdi, Avropa maliyyələşməni bərpa etdi...



Azərbaycan Təhlükəsizlik Şurası katibliyinin aparatının qurulması - dövlətçilik sistemində vacib strukturla bağlı zəruri proses...

■ səh. 3 ■




«Ermənistan, Qarabağ və diaspor arasında konsensus yalnız Paşinyansız mümkündür»

■ səh. 9 ■

ABŞ İranla əlaqələrə görə Ermənistana sanksiyaların tətbiqinə başladı...

■ səh. 6 ■

■ səh. 2 ■

Azərbaycan polisinin fəaliyyətində ilbəil başlayan yeni müsbət tendensiyalar...



■ səh. 11 ■

Qədim Kilikiya erməni çarlığı? Yeni qədim dövlətçilik uydurması...



■ səh. 7 ■

Ermənilərin işğal etdikləri Sərsəng su anbarının suyunu başqa istiqamətə axıtmaq layihəsi...



■ səh. 12 ■

Şəhid qəhrəmanlarımız haqqında əsərlərin dərsliklərə salınması...



■ səh. 15 ■

Qurban bayramının bitməyən problemləri - antisanitariya, bu yandan da gün dəyişikliyi...





## Ordumuzda 16 kilometr hündürlükdə uçan və 100 faiz dəqiqliklə vuran uçuş aparatı...

**Azərbaycan Dövlət Sərhəd Xidmətinin yaranmasının 100 illiyi ilə bağlı Bakıda keçirilən hərbi sərgidə "Harop" adlanan pilotsuz uçuş aparatlarının (PUA) buraxıcı qurğusu nümayiş etdirilib.**

"Trend"in məlumatına görə, "MAZ" markalı zirehli avtomobildə yerləşdirilən qurğu 12 ədəd pilotsuz uçuş aparatını daşıya və havaya buraxa bilir. Qurğu yerləşdirildiyi avtomobildə 45 dərəcə bucaq altında hərəkət edir.

Qurğuda İsrail istehsalı olan pilotsuz uçuş aparatı yerləşdirilə bilir. Qurğu döyüşə hazır vəziyyətə gətirilərkən 9 dəqiqə ərzində öz-özünü test edir və döyüşə hazır olub-olmaması barədə komanda verir. Özünütest zamanı hansısa bir aparat və ya cihazda nasazlıq aşkarlanacağı təqdirdə qurğu avtomatik bloklanır.

Maşında yerləşdirilən PUA 200 kilometr məsafədən idarə olunur. PUA hədəfi izləyir, yerini müəyyən edir və komanda vasitəsilə hücuma keçir. PUA hədəfi 100 faiz vurmağa qadirdir. Aparat 16 min metr hündürlükdə uçduğundan, düşmənin onu görməsi, müəyyən edib vurması qeyri-mümkündür.

Qeyd edək ki, "Harop" 2016-cı ilin aprel döyüşlərində istifadə olunub və 100 faiz nailiyyət əldə edib.

# Prezident "Əmək pensiyaları haqqında" Qanuna dəyişikliyi təsdiqlədi

**Prezident İlham Əliyev "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib.**

Dəyişikliyə əsasən 6-1-ci maddədə "1 mart tarixindən 160 manat" sözləri "1 oktyabr tarixindən 200 manat" sözləri ilə əvəz edilir.

29.1-ci maddədə "və fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalı" sözləri çıxarılır;

Aşağıdakı məzmunda 29.1-1-ci maddə əlavə edilir:

"29.1-1. Sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən indeksləşdirilir.".



Qanun 2019-cu il oktyabrın 1-dən qüvvəyə minir.

# Tramp dünyanı Ümumdünya Ticarət Təşkilatından çıxmaqla hədələdi

**ABŞ prezidenti Donald Tramp, şərtlər yaxşılaşdırılmadığı təqdirdə, ABŞ-ın Ümumdünya Ticarət Təşkilatından çıxacağını bəyan edib.** Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Tramp Ümumdünya Ticarət Təşkilatına "məcbur olsaq tərk edəcəyik" mesajı verib.

Tramp "Bilirik ki, illərdir bizi aldadırlar və bir daha olmayacaq" deyib.

# Azərbaycan polisinin fəaliyyətində ilbəil başlayan yeni müsbət tendensiyalar...

### *Əliməmməd Nuriyev: "Azərbaycan polisinin şanlı tarixi var"*

**Bu gün Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik respublikamızın müstəqillik tarixinin ən mühüm nailiyyətlərindən biridir. Təbii ki, sabitliyin əldə olunması o qədər də asan başa gəlməyib. Ölkəmiz öz dövlət müstəqilliyini bərpa etdikdən sonra çox böyük çətinliklərlə üzləşib.**



Həmin dövrün çətinliklərinin əsas hissəsi məhz Azərbaycan polisinin üzərinə düşüb. Qarabağ müharibəsinin ilk illərində Azərbaycanın nizami ordusu yox idi, ona görə də ön cəbhədə torpaq uğrunda polis vuruşurdu, şəhidlər verirdi. Qanunsuz silahlı dəstələrlə polis mübarizə aparırdı. Bu illər ərzində Azərbaycan polisinin ictimai asayişin qorunmasında əvəzsiz xidmətləri olub.

Danılmaz faktdır ki, həftə ərzində 7 gün, gün ərzində 24 saat təhlükəsiz yaşamaq istəyən hər bir insan polisə etibar edir və bu etibar hörmət və inamla şərtlənir. Həyatın elə çağları, məqamları, hətta anları var ki, onlar insanın daxilində mənəvi bir öhdəlik yaradır. Ancaq polisin həyatı və xidməti elə bu cür anlardan ibarətdir və bəzən bu onun həyatı bahasına başa gəlir.

Şübhəsiz ki, hər bir peşənin bir-birindən fərqli xüsusiyyətləri, üstünlükləri və çətinlikləri var. Bu peşələrin içində polisin xidməti çətinliyi və məsuliyyəti ilə seçilir. İnsan neçə gün yuxusuz qala bilər, neçə həftə istirahətsiz işləyə bilər? Amma polis bu yuxusuz gecələri və istirahətsiz həftələri xidməti-vəzifə öhdəliyi hesab edir, xalqa və qanuna məsuliyyətlə xidmət edir. Elə bu səbəbdəndir ki, polis işində istirahət anlayışı yoxdur. Bu səbəbdən də Azərbaycan polisi ictimai asayişin qorunması və digər sahələr üzrə digər ölkələrdən seçilir.

"Konstitusiya" Araşdırmalar Mərkəzinin rəhbəri, hüquqşünas Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan polisinin əsas vəzifəsi ictimai təhlükəsizliyi təmin etməkdir, eyni zamanda, cinayətkarlığa qarşı mübarizədə daim ön sıradadır: "Danılmaz faktdır ki, Azərbaycan polisi ölkənin müstəqilliyi uğrunda mübarizə aparıb. Azərbaycan polisinin şanlı tarixi var. Polisimiz Birinci Qarabağ müharibəsində yüzlərlə şəhid verib. Bu tarixə işıq tutmaq, vətəndaşın polisə güvənini artırmaq lazımdır. Ölkənin milli qəhrəmanları siyahısına nəzər salanda, Azərbaycan polisinin sayı yetərincədir.

Polisin vəzifəsi asayişin keşiyində dayanmaq, vətəndaşın təhlükəsizliyini təmin etməkdir. Polis-vətəndaş birliyinə əlahiddə ehtiyac var. Polislə vətəndaş arasında sədd çəkmək, ikitərəfli münasibətləri zədələmək yolverilməzdir.

> *"Azərbaycan polisinin peşəkarlığı, onun beynəlxalq cinayətkar dəstələrə qarşı mübarizə aparması qonşu ölkələrin daim diqqətindədir"*

Onu da deyim ki, dövlətçilik uğrunda mübarizədə, qanunsuz silahlı birləşmələrin aradan qaldırılması kimi məsələlərdə polisin müstəsna xidməti var".

Həmsöhbətimizin sözlərinə görə, bu gün Azərbaycan polisinin fəaliyyəti nəticəsində ölkə vətəndaşı daha rahat yaşayır. Ölkə vətəndaşı günün istənilən vaxtı çölə çıxarkən təhlükəsizliklə bağlı problem yaşamır: "Cinəyətkarlıqla mübarizədə qonşu ölkələrlə müqayisə aparılarkən Azərbaycan bu sahə üzrə xeyli uğur qazanıb. Cinayətkar qrupların, quldurluğun aşkar olunmasında Azərbaycan polisinin xidmətləri danılmazdır. Elə hallar baş verib ki, Azərbaycan polisi öz canını ortaya qoyub. Gəncə hadisələri zamanı polislər öz canlarından belə keçdilər" .

Ə.Nuriyev onu da vurğuladı ki, Azərbaycan polisində qeydə alınan uğurlar ona rəhbərlik edən şəxslə bağlıdır. Bu gün Azərbaycan polisi peşəkarlardan ibarətdir. Azərbaycan polisinin peşəkarlığı onun beynəlxalq cinayətkar dəstələrə qarşı mübarizəsində də özünü göstərir. Bu sahədə böyük işlər görülür. Ümumiyyətlə, Azərbaycan polisi məsuliyyətlə fəaliyyət göstərir.

Hüquqşünas qeyd etdi ki, Azərbaycan polisinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı ölkə başçısı tərəfindən mühüm qərarlar qəbul edildi. Nəzərə almaq lazımdır ki, polisin funksional vəzifələrini peşəkarcasına icrasından asılıdır: "Bu səbəbdən də Azərbaycan polisi rahat şəkildə ölkənin təhlükəsizliyinin qorunmasında lazımi xidmətlər göstərir.

Hər bir ölkə vətəndaşı bilir ki, onun əmlakını, canını Azərbaycan polisi qoruyur. Bu səbəbdən də Azərbaycan cəmiyyəti hər zaman polisə arxayındır. Tək dövlət deyil, vətəndaş cəmiyyəti, sadə vətəndaşlar belə polisin fəaliyyətinə daim dəstək verməlidirlər".

***Günel CƏLİLOVA***

# Prezidentin sosial islahatlar paketinin daha bir istiqaməti üzrə əməkhaqqı artımları başlayır

**Xəbər verildiyi kimi, dövlət büdcəsindən maliyyələşən 18 qurumun əməkdaşlarının maaşı artır. Nazirlər Kabineti dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşlarının artırılması haqqında qərara dəyişiklik edib.**

*"...xüsusən də aztəminatlı ailələrin sosial rifahının yaxşılaşdırılmasına təkan verəcək"*

**Vüqar Bayramov:** *"Maaş artımı əsasən sosial sahədə çalışan işçilərdə qeydə alınacaq"*



Dəyişikliyə əsasən, həmin işçilərin vəzifə maaşları 30-40%-dək artırılaraq yeni Vahid Tarif Cədvəli təsdiq edilib. Əməkhaqları Vahid Tarif Cədvəli əsasında ödənilən işçilərin sırasına dövlət büdcəsindən maliyyələşdirilən sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışanlar daxildir. Məlumat üçün bildirək ki, maaş artımı sentyabrın 1-dən tətbiq ediləcək.

Dövlət büdcəsindən maliyyələşən təşkilatların əməkhaqlarının 30-40 faiz dəyərində artması həmin sektorda çalışan işçilərin sosial vəziyyətinin inkişaf etməsinə səbəb olacaq. Qeyd edək ki, tək dövlət büdcəsindən maliyyələşən deyil, eyni zamanda, bütün sahələrdə çalışan şəxslərin aylıq maaşlarının artımı ölkə başçısı İlham Əliyevin diqqətindədir. Ümumiyyətlə, Prezidentin sosial islahatlar paketinin əsas istiqamətlərindən biri də əməkhaqlarının artmasıdır.

Bu ilin əvvəlindən bu yana vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üçün ard-arda iki sosial paket qəbul olunub.

İqtisatçı-ekspert Vüqar Bayramov bildirdi ki, maaş artımının tətbiq edilməsi xüsusən də aztəminatlı ailələrin sosial rıfahının yaxşılaşdırılmasına təkan verəcək: "Maaş artımı əsasən sosial sahədə çalışan işçilərdə qeydə alınacaq. Az əməkhaqqı alan və əsas qrup olan vətəndaşların əməkhaqqında 40 faiz artım müşahidə olunacaq. Bu artımlar sayəsində sosial qayğıya ehtiyacı olan vətəndaşların gəlirlərində artım baş verəcək. Bu istiqamətdə daha çox vəsaitin ayrılması gözlənir".

Həmsöhbətimiz onu da vurğuladı ki, tək bu il ərzində bir sıra sahələrdə əməkhaqqı artımı yaşanıb. Əməkhaqqı ilə yanaşı, minimum əməkhaqqı, müavinətlərin həcmi də artıb. Məlumdur ki, sentyabrın 1-dən minimum əməkhaqqı da artacaq. Bütövlükdə, 2019-cu ildə tətbiq edilən sosial paket 3 milyondan artıq vətəndaşı əhatə edəcək. Eyni zamanda, digər sahələrdə də əməkhaqları artır və artacaq".

***Günel CƏLİLOVA***

# Azərbaycan Təhlükəsizlik Şurası katibliyinin aparatının qurulması - dövlətçilik sistemində vacib strukturla bağlı zəruri proses...

**Dünyanın bir sıra ölkələrində dövlət başçısı yanında təhlükəsizlik şuraları fəaliyyət göstərir. Sözügedən qurum çox mühüm və strateji orqan hesab edilir. Yeri gəlmişkən onu da qeyd edək ki, Ermənistanın Təhlükəsizlik Şurasının katibinin dəvətilə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev bu ölkədə səfərdə olub.**

*"Belə olsa, o zaman idarəçilik sistemi daha səmərəli və çevik işləyə bilər"*

**Qabil Hüseynli:** *"Hesab edirəm ki, sözügedən qurumun bəlli bir strukturlarının yaradılmasına ehtiyac var"*



20 iyun 2019-cu ildə Ramil Usubovun Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi təyin edilməsi bu qurumun roluna verilən önəmin göstəricisidir. Qeyd edək ki, uzun müddət idi sözügedən qurumun katiblik postu boş idi. Ramil Usubov dövlətçilik sahəsində kifayət qədər təcrübəli və yetkin dövlət xadimidir. Belə bir postun ona həvalə edilməsi strateji baxımdan qurumun dövlət üçün mühüm əhəmiyyət kəsb etməsindən xəbər verir.

Onu da qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurası 10 aprel 1997-ci ildə yaradılıb. Təhlükəsizlik Şurası Prezidentin yanında məşvərətçi orqandır. O, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 27-ci bəndinə uyğun olaraq Prezident tərəfindən yaradılır. Təhlükəsizlik Şurası vətəndaşların hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunması sahəsində Prezidentin öz Konstitusiya səlahiyyətlərini həyata keçirməsinə şərait yaradılmasını təmin edir.

Təhlükəsizlik Şurasına Vitse-prezident, Milli Məclisin sədri, Baş nazir, Prezident Administrasiyasının rəhbəri, dövlət müşavirləri, baş prokuror, xarici işlər naziri, müdafiə naziri, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, daxili işlər naziri daxildir.

Qurumun mühüm rola və strateji əhəmiyyətə malik olduğunu nəzərə alsaq, Prezident yanında Təhlükəsizlik Şurası katibliyinin aparatının yaradılması və fəaliyyətə başlaması çox faydalı ola bilər. Hələlik bu barədə rəsmi bir qərar olmasa da, cəmiyyətdə bununla bağlı müəyyən fikirlər, istəklər səslənir. Yəni qurumun aparatının yaradılması və fəaliyyətə başlaması daha çox fayda verə bilər və s.

Maraqlıdır, ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynlinin sözlərinə görə, dövlət idarəçiliyində effektivliyin daha da artırılması baxımından Prezident yanında Təhlükəsizlik Şurası katibliyinin aparatının yaradılmasına ehtiyac var: "Ramil Usubov təhlükəsizlik məsələlərində səriştəli bir şəxsdir. Hesab edirəm ki, sözügedən qurumun bəlli bir strukturlarının yaradılmasına ehtiyac var. Prezident yanında Təhlükəsizlik Şurası katibliyinin aparatı yaradılmalıdır. Mütəmadi olaraq bu qurumun iclaslarının keçirilməsi dövlətçilik və idarəçilik üçün səmərəli olar. Belə bir qərar olsa, o zaman bu qurumun daha effektiv işləməsinə kömək edə bilər. Nəticədə ortaya çıxan istənilən problemi tez həll etmək mümkün olacaq. Nəzərə almaq lazımdır ki, Prezident yanında Təhlükəsizlik Şurası katibliyi qurumlarüstü fəaliyyəti ilə məsələlərin çevik və dinamik həllinə töhfə verə bilər. Bunun üçün də təbii ki, qurumun aparatı yaradılmalı və fəaliyyətə başlamalıdır. Belə olsa, o zaman idarəçilik sistemi daha səmərəli və çevik işləyə bilər. Ona görə də hesab edirəm ki, indiki dövrdə buna ehtiyac var. Buna gedilsə, faydalı nəticələr əldə etmək mümkün olacaq".

***Vidadi ORDAHALLI***

Məlum olduğu kimi, avqustun 11-12-də Türkmənistanın Avaza şəhərində Birinci Xəzər İqtisadi Forumu keçirilib. Forumda Xəzəryanı ölkələrin nümayəndə heyətləri, hökumət başçıları və üzvləri, sahilyanı regionların və regional icra orqanlarının rəhbərləri, bank sektorunun nümayəndələri və Xəzər regionunun və maraqlı ölkələrin işgüzar dairələri, tədqiqatçılar və iqtisadiyyatın inkişafı ilə məşğul olan şirkətlərin rəhbərləri iştirak ediblər.

# "Transxəzər" kəməri ilə bağlı İran və Rusiyanın demarşı, Ermənistanın yersiz sevinci və Cənub Qaz Kəmərini doldurmaq perspektivi...

## *Fikrət Yusifov: "Bu cür yanaşma tamamilə yanlışdır"*




Forum çərçivəsində ticarət və iqtisadi əlaqələrin inkişafı, əsasən də böyük layihələr üçün şəraitin yaradılması, Xəzər regionunun iqtisadiyyatının qlobal kontekstdə rolu, neft və qaz, elektrik enerjisi, nəqliyyat, ticarət, kənd təsərrüfatı, turizm və Xəzəryanı dövlətlərin qarşılıqlı maraq kəsb edən digər sahələrində investisiya cəlbediciliyi mövzusunda müzakirələr aparılıb.

Onu da qeyd edək ki, Forumda Rusiya və İran təmsilçiləri Xəzərin dibi ilə boru xəttinin tikintisinin əleyhinə çıxıblar. Sözügedən ölkələri təmsil edən nümayəndələr ekoloji məsələləri bəhanə edərək dənizin dibi ilə kəmərin çəkilməsini məqsədəuyğun hesab etməyiblər.

İran və Rusiyanın sərgilədiyi bu mövqeyi böyük sevinclə qarşılayan erməni mətbuatı bunu "özünəməxsus" tərzdə şərh etməyə çalışıb. Erməni mətbuatının iddiasına görə, guya İran və Rusiyanın bu mövqeyinə görə 3 ölkə prezidentinin avqustun 14-də gözlənilən Soçi görüşü baş tutmayıb. Erməni mətbuatının uydurmasına görə, Türkmənistandan Xəzər dənizinin dibi ilə boru kəməri yoxdursa, Azərbaycanın "Cənub Qaz Dəhlizi"ni doldurmağa qazı olmayacaq. Bu səbəbdən guya Avropaya doğru Azərbaycandan çəkilən boru kəmərlərinin perspektivi yoxdur və s.

Maraqlıdır, deyilənlər nə dərəcədə əsaslıdır? Azərbaycan öz qaz resursları hesabına CQD-ni doldura bilərmi?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, bu cür iddiaların heç bir əsası yoxdur: "Cənub Qaz Dəhlizi" layihəsi ortaya atılanda heç kəs Türkmənistan qazının bu layihə vasitəsilə ötürülməsini düşünməmişdi. Yaxud da "Türkmənistan qazı olmadan bu layihə reallaşa bilməz" fikri ortada olmayıb. O üzdən, bu cür yanaşma tamamilə yanlışdır. Ona görə ki, CQD-ni doldurmaq üçün Azərbaycanın kifayət qədər qaz resursu var. Sadəcə olaraq, Türkmənistan qazının CQD ilə ötürülməsinə bir variant kimi baxılırdı. Mən özüm də bu barədə bir neçə dəfə yazmışam. Türkmən qazının bu xətt vasitəsilə ötürülməsi çox səmərəli variantdır. Bu həm Türkmənistan, həm də Azərbaycan üçün səmərəli variantdır. Ancaq türkmən qazı olmasa belə, boru kəmərinin doldurulmasında heç bir problem olmayacaq. Rusiya ilə İranın mövqeyinə gəldikdə isə, bu ölkələr Azərbaycanın bu sahədə oynadığı rola qısqanclıqla yanaşırlar. Bu da yeni deyil. Reallıq ondan ibarətdir ki, Avropa Rusiyadan qaz asılılığını minimuma endirmək istəyir. Çünki Rusiya fürsət düşən kimi Avropanı qazla şantaj edir. İstənilən halda, qazın sahibi Türkmənistan olduğuna görə haçansa bu barədə qərar verəcək".

> *"CQD-ni doldurmaq üçün Azərbaycanın kifayət qədər qaz resursu var"*

***Vidadi ORDAHALLI***

---

Türkmənistanın Xəzər sahilindəki Avaza şəhərində avqustun 12-də işini yekunlaşdıran beynəlxalq iqtisadi forum zamanı "Transxəzər" qaz kəməri ideyası da gündəmə gəlib. Ancaq məsələ ondadır ki, forumda həm Rusiya, həm də İran nümayəndələri sözügedən layihəyə qarşı olduqlarını nümayiş etdiriblər.

# "Transxəzər" qaz kəmərinə qarşı Rusiya və İranın konvensiyaya zidd mövqeyi nə ilə bağlıdır...

## *Məhəmməd Əsədullazadə: "Bu ölkələr Avropanın enerji diversifikasiyasında mühüm rol oynaya biləcək kəmərin reallaşmasında maraqlı deyil"*




İranın "National Gas Company" şirkətinin nümayəndəsi Bəhruz Namdari Xəzər forumunda çıxışı zamanı bildirib ki, İran Xəzər dənizində şərqdən qərbə qaz kəmərlərinin tikintisinə qarşı çıxır: "Çünki bu, regionun ekologiyasına ciddi zərər vura bilər".

O xatırladıb ki, İran qonşu ölkələrə karbohidrogen resurslarını dünya bazarlarına çıxarmaq üçün öz infrastrukturunu - qaz kəmərlərini və terminallarını təklif edir.

Rusiyanın Baş naziri Dmitri Medvedyev də forumda çıxışı zamanı Xəzərdə neft-qaz kəmərlərinin çəkilməsinə dair layihələrin əvvəlcə bütün sahilyanı ölkələr tərəfindən ekoloji ekspertizadan keçirilməli olduğunu deyib. Belə müddəa Xəzərin statusuna dair konvensiyada da əksini tapır. Halbuki, konvensiyanın digər müddəasına görə, Xəzərdə neft-qaz kəmərlərinin çəkilməsi həmin kəmərlər hansı ölkənin milli sektorlarından keçirsə, onların öz aralarında razılaşdırılmalıdır. Bu o deməkdir ki, sözügedən məsələni Türkmənistanla Azərbaycan öz aralarında razılaşdırmalıdır. Ancaq, nədənsə, bu məqam Medvedyevin diqqətindən yayınır.

Daha əvvəl Rusiya hökumətinin aparat rəhbəri Sergey Prixodko da "Transxəzər" qaz kəməri ideyasını məqsədəuyğun saymadığını deyib.

Onu da qeyd edək ki, "Transxəzər" qaz kəməri ideyasını Qərb fəal müdafiə edir və dəfələrlə bu layihə Türkmənistanla danışıqlarda müzakirə olunub. Azərbaycanın layihə ilə bağlı mövqeyi bəlidir ki, "Transxəzər" barədə qərarı kəmərin başlanğıcını götürdüyü ölkə qəbul etməlidir. Azərbaycan isə ancaq bundan sonra tranzit ölkə kimi öz mövqeyini ortaya qoyacaq.

Maraqlıdır, Xəzərin statusu ilə bağlı konvensiyada sözügedən məsələ ilə bağlı aydın məqamlar öz əksini tapdığı halda, İranla Rusiya niyə buna qarşı zidd mövqe sərgiləyirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə İran və Rusiyanın konvensiyaya zidd mövqe sərgiləməsini bir sıra amillərlə əlaqələndirdi: "Türkmənistanda keçirilən Xəzər İqtisadi Forumu beş sahilyanı dövlətin iqtisadi əməkdaşlığını nəzərdə tutur. Azərbaycan daim Xəzərdə iqtisadi layihələrin həyata keçirilməsində maraqlıdır. Xüsusilə sahilyanı ölkələrlə iqtisadi və nəqliyyat əlaqələrinin inkişafına daim töhfə verib. Aşqabadda keçirilən sözügedən görüş də bu kimi məsələləri özündə ehtiva edirdi. Ancaq Aşqabad görüşündə İran və Rusiyanın tutduğu mövqe heç də Xəzərdə iqtisadi əməkdaşlığa töhfə verməyəcək. Çünki hər iki dövlət Xəzərdə millitarist siyasət aparmaqda və burada enerji layihələrinin həyata keçirilməsində maraqlı deyil. Ona görə də ötən il əldə olunmuş Xəzərin son hüquqi statusunu nəzərdə tutan konvensiyasının ziddinə olaraq mövqe ortaya qoydular. Tehranla Moskva dənizin dibi ilə hər iki sahilyanı dövlətin razılığı ilə reallaşa bilən boru kəmərlərinin çəkilişinin həyata keçirilməsinə qarşı çıxaraq, Azərbaycan və Türkmənistanın birgə layihələrinə mane olmaq istəyirlər. Bu əsasən geosiyasi və geoiqtisadi kontekstdə qiymətləndirilir. Çünki İran və Rusiya Avropanın enerji diversifikasiyasında mühüm rol oynaya biləcək "Transxəzər" kəmərinin reallaşmasında maraqlı deyil. Ona görə də kəmərlə bağlı ekoloji bəhanə gətirməklə buna mane olurlar. Hesab edirəm ki, hər iki ölkənin yanaşması kökündən qərəzlidir və Azərbaycanın bu layihələrinə qarşı qısqanclıqdan irəli gəlir. İran və Rusiya bu kəmərlərin öz ərazilərindən keçməsini istəyirlər. Ancaq Qərb ölkələri İran və Rusiyanın enerji amilindən siyasi təzyiqlər kimi istifadə edəcəyindən əmin olduğuna görə hər iki ölkənin enerji layihələrində əsas rol almasına razı deyil. Hazırda Xəzər regionu Qərblə Rusiyanın maraqlarının toqquşduğu arealdır. Sonda Qərb "Transxəzər" boru kəmərinin reallaşmasına nail olacaq".

> *"Hər iki ölkənin yanaşması kökündən qərəzlidir və Azərbaycanın bu layihələrinə qarşı qısqanclıqdan irəli gəlir"*

***Vidadi ORDAHALLI***

# "Transxəzər" qaz kəməri iki kəskin əks qərarın arasında - Rusiya və İran birləşdi, Avropa maliyyələşməni bərpa etdi...

**Uzun illərdir xüsusi müzakirə mövzusuna çevrilən "Transxəzər" qaz kəməri ilə bağlı yenidən maraqlı bir vəziyyət yaranmaqdadır. Belə görünür ki, "Transxəzər" məsələsi yaxın tezlikdə Qərblə Rusiya, eləcə də İran arasında daha ciddi geosiyasi çəkişmə predmetinə çevriləcək.**

Hər halda, Türkmənistanın Xəzər sahilindəki Avaza şəhərində işini yekunlaşdıran beynəlxalq iqtisadi forumun nəticələri də məhz bu qənaətə gəlməyə əsas verir.

Qeyd edək ki, forum zamanı "Transxəzər" kəməri ideyası da gündəmə gəlib. Amma İranın "National Gas Company" şirkətinin nümayəndəsi Bəhruz Namdari ölkəsinin buna qarşı olduğunu bildirib: "İran Xəzər dənizində Şərqdən Qərbə qaz kəmərlərinin tikintisinə qarşı çıxır, çünki bu, regionun ekologiyasına ciddi zərər vura bilər". Rusiyanın baş naziri Dmitri Medvedyev də Xəzər forumunda çıxışı zamanı Xəzərdə neft-qaz kəmərlərinin çəkilməsinə dair layihələrin əvvəlcə bütün sahilyanı ölkələr tərəfindən ekoloji ekspertizadan keçirilməli olduğunu deyib. Belə müddəa Xəzərin statusuna dair konvensiyada da əksini tapır. Amma konvensiyanın digər müddəasına görə, Xəzərdə neft-qaz kəmərlərinin çəkilməsi, həmin kəmərlər hansı ölkənin milli sektorlarından keçirsə, onların öz aralarında razılaşdırılmalıdır. Tahran və Moskvanın bu mövqeyinə rəğmən, "Transxəzər" kəməri ideyasını Qərb fəal müdafiə edir və dəfələrlə bu layihə Türkmənistanla danışıqlarda müzakirə olunub. Məsələn, elə Xəzər forumu zamanı Rusiya və İranın məlum mövqeyi fonunda Avropa İttifaqı (Aİ) Türkmənistanla bu ölkəni Azərbaycanla birləşdirəcək "Transxəzər" kəmərinin tikintisinin maliyyələşdirilməsinə dair danışıqları bərpa edib. Qurumun Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Peter Burian bildirib ki, təmsil etdiyi beynəlxalq maliyyə qurumu Türkmənistana məxsus təbii qazın Avropa ölkələrinə nəql edilməsini nəzərdən keçirir.

Xatırladaq ki, bundan əvvəl ABŞ prezidenti Donald Tramp da ümid etdiyini bildirib ki, Türkmənistan Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsindən sonra Qərbə qaz ixracının imkanlarından istifadə etməyə başlayacaq. ABŞ prezidentinin türkmənistanlı həmkarı Qurbanqulı Berdiməhəmmədova ünvanladığı teleqramda deyilirdi ki, Türkmənistan Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı Qərbə yeni qaz ixrac imkanlarından istifadə edə biləcəyinə ümid edir. Baş verənlər fonunda ABŞ-ın "Washington Post" qəzeti yazır ki, hələ keçən il Rusiya, İran, Azərbaycan, Türkmənistan və Qazaxıstan liderləri öz qaynaqlarının istismarı ilə bağlı on illərlə davam edən qeyri-müəyyənliyə son qoymağa yönəlmiş bir konvensiya imzalayıb: "Saziş hər bir ölkənin ərazi sularının və balıqçılıq zonalarının təyin edilməsi qaydalarını müəyyən edir, lakin zəngin neft və qaz yataqları olan dəniz dibinin bölünməsi məsələsi sonrakı danışıqlara qalır. Rusiya və İran hələ də keçənilki müqaviləni təsdiqləməyib. Türkmənistanda keçirilən forumda iştirak edən Rusiyanın baş naziri Dmitri Medvedyev təsdiqlənmənin "yaxın gələcəkdə" gözlənildiyini deyib.

İran vitse-prezidenti İshaq Cahangiri forumdakı çıxışında heç bir öhdəlik götürməyib. Cahangiri bildirib ki, qeyri-Xəzəryanı dövlətlər bölgə işlərinə qarışmamalıdır. O, birtərəfli siyasəti və sanksiyaları ilə ABŞ-ın bölgədə sabitliyi təhdid etdiyini bildirib. 2006-cı ildə vəzifəsinin icrasına başlayandan bəri vahid iqtidara sahib olan, özünü keçmiş sovet respublikasının Arkadağı (Qoruyucusu) kimi təqdim edən Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov forumda bildirib ki, Xəzərin enerji zənginliyi bölgənin inkişafına güclü təkan verməlidir. Türkmənistan və Azərbaycan hələ də dənizin dibindəki ehtiyatları necə bölüşmək barədə razılığa gəlməyib. Bu, Türkmənistan qazını dəniz üzərindən Azərbaycana və daha sonra Qərb bazarlarına aparacaq "Transxəzər" təbii qaz boru kəmərinin irəliləyişinə mane olub. Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti Bəhram Hüseynov bildirib: "Bu çox həssas məsələdir. Hələ konkret addımlar atılmayıb və müəyyən məsələləri müzakirə etmək tezdir". Hüseynov əlavə edib ki, Azərbaycanla Türkmənistan arasındakı dəniz sərhədinin delimitasiyası enerji sərvətlərinin bölüşdürülməsi ilə bağlı danışıqları asanlaşdıra bilər.

Qərb enerji mənbələrini diversifikasiya etmək səyləri çərçivəsində perspektivli "Transxəzər" boru kəmərlərini uzun müddət təşviq edib, Rusiya və İran isə bu planları həyəcanla izləyir. Xəzərdən daha çox enerji ixracı öz neft və qazının Avropa bazarlarına satışını genişləndirməyə çalışan Rusiyadan gələn enerji tədarükləri ilə rəqabət aparacaq. İran Xəzərdən enerji tədarükünün öz ərazisini keçməsinə çalışır, "Transxəzər" marşrutlarının çox bahalı və təhlükəli olduğunu iddia edir". Qeyd edilənlərlə yanaşı, qəzet yazır ki, Qərbin ciddi dəstəyi sayəsində "Transxəzər" reallaşa bilər. Amma bu zaman Rusiya və İran ona maksimal dərəcədə maneə yaratmağa çalışacaq. Azərbaycanın isə layihə ilə bağlı mövqeyi belədir ki, "Transxəzər" barədə qərarı kəmərin başlanğıcını götürdüyü ölkə qəbul etməlidir. Azərbaycan isə ancaq bundan sonra tranzit ölkə kimi öz mövqeyini ortaya qoyacaq. Bakı onu da bəyan edir ki, əlavə həcmləri qəbul etmək üçün kifayət qədər böyük infrastrukturu var.




**Qeyd olunur ki, alıcının və satıcının kimliyindən asılı olmayaraq, Azərbaycan hər zaman qonşu dövlətlərin hamısının bu məsələ içində maraqlarının təmin olunmasına diqqət edir. İndilikdə isə Türkmənistan nefti, kondensatı Azərbaycan üzərindən dünya bazarlarına çıxmaqdadır. "Transxəzər" çəkiləcəyi təqdirdə isə türkmən qazı da yenə Azərbaycan üzərindən dünya bazarına çıxmaq imkanı qazanacaq.**

***Tahir TAĞIYEV***

# ABŞ İranla əlaqələrə görə Ermənistana sanksiyaların tətbiqinə başladı...

**ABŞ Ticarət Nazirliyi Ermənistandan iki şirkəti - Yerevan Telekommunikasiya Tədqiqat İnstitutunu (YerTTİ) və "Markel" Qapalı Səhmdar Cəmiyyətini (QSC) "qara siyahı"ya salıb. Bu barədə məlumat ABŞ Ticarət Nazirliyinin saytında yer alıb.**




Ticarət Nazirliyi bildirir ki, YerTTİ məhsulları ABŞ Sənaye və Təhlükəsizlik Bürosunun Ticarət Nəzarəti Siyahısından lazımi lisenziyalar olmadan alıb və təkrar ixrac edib.

Bundan başqa, YerTTİ-nin icraçı direktoru və "Markel" QSC-nin prezidenti olan şəxs ABŞ-ın sanksiyaları altında olan İran təşkilatı ilə bizneslə məşğul olur. Amerika hakimiyyət orqanlarının fikrincə, bu şirkətlər milli təhlükəsizliyə və ABŞ xarici siyasətinin maraqlarına zidd hərəkət edirlər. Sanksiyaların məhdudlaşdırılması çərşənbə günü qüvvəyə minəcək.

Bir ara ermənilər bəyan edirdilər ki, guya Ermənistanın mövcud coğrafi və iqtisadi vəziyyətinə görə İran məsələsində Birləşmiş Ştatlar bu ölkəyə çox da təzyiq göstərməyəcək, seçim etmək məcburiyyətində qoymayacaq. Ancaq bütün bu deyilənlər özünü doğrultmadı. Göründüyü kimi, ABŞ Ermənistan şirkətlərinə qarşı sanksiyalara başladı.

Bəzi siyasi müşahidəçilərin fikrincə, ABŞ-ın Ermənistana qarşı sanksiyalarını artırması mümkündür. Bunu onunla əlaqələndirirlər ki, Azərbaycan şirkətləri İranla müxtəlif sahələrdə əməkdaşlıq etməsinə baxmayaraq, Amerika tərəfindən heç bir sanksiyaya məruz qalmayıb. Çünki Azərbaycan o sahələrdə İranla əməkdaşlıq edir ki, bu sahələr sanksiyalar siyahısına düşmür. Ancaq Ermənistan elə sahələrdə İranla əməkdaşlıq edir ki, ona qarşı belə sanksiyalar tətbiq olunur. Bu baxımdan, ABŞ-ın Ermənistana qarşı sanksiyalar siyahısının bir az da genişlənəcəyi güman edilir.

## *Mübariz Əhmədoğlu: "Ermənistanın iki şirkətinin adının "qara siyahı"ya salınmasının iqtisadi anlamından daha çox siyasi mahiyyəti var"*

Bütün hallarda, ABŞ-ın Ermənistan şirkətlərinə yönəlik bu addımını ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, ABŞ-ın Ermənistan şirkətlərinə yönəlik bu addımı iqtisadi mənadan çox siyasi məna kəsb edir: "Görünən odur ki, ABŞ-ın Ermənistana münasibətində ancaq neqativliklər var. Ermənistanın iki şirkətinin adının "qara siyahı"ya salınmasının iqtisadi anlamından daha çox siyasi mahiyyəti var. Ermənistanın İranla əməkdaşlığını, faktiki olaraq, ABŞ qəbul etmir. İqtisadi baxımdan burada elə bir böyük rəqəm yoxdur. Sadəcə olaraq Vaşinqton məhz İrəvanı qeyri-səmimi siyasət apardığına, müstəqil siyasət yeridə bilmədiyinə görə cəzalandırır. Yəni ABŞ-Ermənistan münasibətləri çox dərin olub. ABŞ-da erməni lobbisi çox dərin kök salıb. Lazım olanda onlar çox işlər görüblər. Ancaq bu münasibətlər nə qədər dərin olsa da, sözügedən münasibətləri xarakterizə edən Con Bolton regionda olarkən ortaya mövqe qoydu. Bildirdi ki, Ermənistan istəyirsə onun xarici siyasətinə təzyiqlər azalsın, o zaman Dağlıq Qarabağ məsələsini həll etməlidir.

*"Vaşinqton məhz İrəvanı qeyri-səmimi siyasət apardığına, müstəqil siyasət yeridə bilmədiyinə görə cəzalandırır"*

Yəni ABŞ demək istəyir ki, Ermənistan müstəqil xarici siyasət apara bilmir. Ancaq Ermənistan rəhbərliyi Boltona qulaq asmadı. Belə olan halda, Ermənistan şirkətlərinə qarşı sanksiyalara start verildi. Azərbaycanla münasibətlərdə isə müsbət dinamika var. Ermənistana ayrılan yardım azaldılır, Azərbaycana ayrılan yardım isə artırılır. Bütün bunlar mühüm faktorlardır".

***Vidadi ORDAHALLI***

# Bir neçə Azərbaycan radikalının Paşinyanın mitinqindən dividend almaq niyyəti - planı Əli Kərimli cızıb...

**Ermənistanın baş naziri Nikol Paşinyanın Xankəndidə keçirilən mitinqdə Dağlıq Qarabağı erməni torpağı elan etməsi və başqa sərsəmləmələri elə onların özünü pis vəziyyətə salıb. Artıq bununla Azərbaycanın əlinə kifayət qədər əsas vermiş olublar ki, Ermənistan dövlət səviyyəsində işğalı dəstəkləyir və belə bir rejimlə sülh danışıqları aparmaq yersizdir.**

Paşinyanın məlum çıxışına Azərbaycan rəsmi dairələri kəskin reaksiya verib. Ancaq hiss olunur ki, ölkədəki bəzi radikal müxalif dairələr bu amildən yararlanmaq, özləri üçün əlavə dividentlər qazanmaq istəyirlər. Dünən maraqlı bir formatda baş tutan görüş və həmin təmasdan sonra verilən açıqlamalardan bunu aydın görmək mümkündür. ADR hərəkatının rəhbəri Qubad İbadoğlu FB səhifəsində "işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlar ətrafında yaranmış son durumla bağlı ictimai-siyasi təşkilatların rəhbərləri və ekspertlərin iştirakı ilə müzakirə" aparıldığı barədə məlumat yayıb. Paylaşılan fotodan görünür ki, görüşdə Qubad İbadoğlu, Əli Kərimli, Gültəkin Hacıyeva, Əhməd Əlili, Mehman Əliyev və İlham İsmayıl iştirak edib. Görüşdə iştirak edən AXCP sədri Əli Kərimli müzakirə edilən məsələ ilə bağlı Qənimət Zahidə müsahibə verib. Həmin müsahibədə bildirib ki, Ermənistan baş naziri Paşinyan avqustun 5-də Qarabağda mitinq iştirakçıları qarşısında çıxış edərək Qarabağın Ermənistana birləşməsi haqqında bəyanat verib: "Bu bəyanat Azərbaycan cəmiyyətində etirazla qarşılanıb və ictimai-siyasi təşkilatlar, ayrı-ayrı ictimai fəallar, o cümlədən rəsmi qurumlar etirazlarını bildiriblər. ADR hərəkatının rəhbəri Qubad İbadoğlunun təşəbbüsü ilə bu gün avqustun 8-də yaranmış vəziyyətlə əlaqədar bir sıra ictimai və siyasi xadimlər arasında müzakirə və fikir mübadiləsi aparıldı. Bu, rəsmi xarakter daşımayan görüş olduğundan yekunda hər hansı bir sənəd, bəyanat qəbul olunmadı, amma bu istiqamətdə fəaliyyətin davam etdirilməsi və ekspertlər səviyyəsində münaqişənin həll olunması üçün tədbirlər paketinin hazırlanması məqsədəuyğun hesab olundu".



Ən maraqlısı isə budur ki, Əli Kərimli Paşinyanın çıxışı ilə bağlı amildən hakimiyyətə qarşı maksimum istifadə etmək niyyətinin ortada olduğunu gizlətməyib. Deyib ki, görüşdə əldə olunan nəticələrlə bağlı hakimiyyətə hər hansı bir təklif verməyəcəklər: "Yaxşı olar ki, Paşinyanın səsləndirdiyi fikirlərdən sonra hakimiyyət istefaya getsin. Onların Dağlıq Qarabağ probleminin həllinə ən böyük töhfəsi bu olar".

Göründüyü kimi, uzun müddət müxalifətdə qalan, hakimiyyətin bir addımına da yaxın düşə bilməyən Əli Kərimli indi Paşinyan amilindən yararlanmağa çalışır. Bundan hakimiyyətə qarşı təzyiq faktoru kimi istifadə edir. Ancaq unudur ki, bu cür milli məsələlərdə iqtidar, müxalifət amili kənara qoyulmalıdır.

Niyə Əli Kərimli görmür ki, onun indi yararlanmağa çalışdığı çıxışı Paşinyan kimlərin əhatəsində edirdi? Paşinyan "miatsum" (birləşmə-red) deyəndə onun yanında duranlardan biri də separatçıların lideri Arkaqi Quqasyan idi. Həmin adamla Paşinyanın münasibəti faktiki düşmənçilik həddindədir. Ancaq Quqasyan Paşinyanın çıxışını meydanda alqışlayırdı. Bəlkə bizim bəzi radikallar Paşinyanı alqışlamaq əvəzinə, onların bu davranışından da bir nümunə götürsünlər? Bütün dünyada qəbul edilən bir siyasi əxlaq nümunəsi var. Milli, dövləti əhəmiyyət kəsb edən məsələlərlə bağlı hakimiyyət, müxalifət birləşib vahid mövqedən çıxış edir. Bunu bizim radikallar bilməmiş deyillər. Əməl etmirlərsə, deməli, ya siyasi əxlaqları yoxdur, ya da Dağlıq Qarabağ problemini milli, dövləti əhəmiyyətli mövzu saymırlar. Ondan yalnız hakimiyyətə gəlmək üçün yararlanmağa çalışırlar. Yazıqlar olsun...

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Ermənistanda səfərdə olan Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev erməni həmkarı Armen Qriqoryanla görüşüb. Görüşdə iki ölkə arasındakı təhlükəsizlik məsələləri müzakirə olunub. O cümlədən, üçüncü ölkələrə silah tədarükü məsələsi qaldırılıb.**

# Azərbaycana silah satışı məsələsi yenidən Rusiya-Ermənistan danışıqlarının gündəmində - yeni erməni təşəbbüsü...



## Arzu Nağıyev: *"Silah alqı-satqısı ilə bağlı Azərbaycan-Rusiya müqaviləsi ratifikasiya olunub"*

Tərəflər Ermənistan və Rusiya arasında müttəfiq tərəfdaşlığı çərçivəsində həyata keçirilən hərbi-texniki və hərbi-iqtisadi əməkdaşlığın hazırkı gedişatı və 3-cü ölkəyə silah satışının tənzimlənməsi kimi məsələləri müzakirə ediblər.

Müzakirə zamanı Azərbaycana silah satılması məsələsi Ermənistan tərəfini narahat edib. Hətta Ermənistan təmsilçisi Patruşevdən "niyə Azərbaycana silah satırsınız?" kimi sual da ünvanlayıb.

Qeyd etdiyimiz kimi, Azərbaycana silah satışı məsələsi yenidən Ermənistanla danışıqlarda gündəmə gəlib. Ermənilərin məlum qorxusu nə ilə bağlıdır?

Tanınmış politoloq Arzu Nağıyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, siyasi dəyişikliklərdən sonra Rusiya Təhlükəsizlik Şurası nümayəndələrinin Paşinyanla ilk görüşü oldu: "Bu görüş zamanı bir neçə istiqamətdə söhbətlərin aparılması gözlənilirdi. Ermənilərin dırnaqarası irad tutacağı məsələ Azərbaycana silah satılması idi. Məlumdur ki, silah alqı-satqısı ilə bağlı Azərbaycan-Rusiya müqaviləsi ratifikasiya olunub. Birinci gün deyil ki, bunlar bir-birinə silah satır. Maraqlıdır, o zaman Ermənistana verilən silah barəsində niyə fikir bildirmir? Ermənistana ayrılan kredit vasitəsilə alınan silahlar qarşısında niyə onların Təhlükəsizlik Şurası bu məsələni qaldırmır.

*"...Azərbaycana silah satılması məsələsinin müzakirə olunması siyasi gediş idi"*

Hesab edirəm ki, bu, kütləvi informasiya vasitələri üçün ortaya atılmış məsələdir. Eyni zamanda, burada Rusiya tərəfinin gedişi ola bilər ki, Ermənistan tərəfi belə bir sual ortaya qoymaqla zənn edir ki, Rusiya ilə Azərbaycan arasında münasibət istidir".

Politoloqun sözlərinə görə, məlum görüşdə müzakirə olunmalı çox ciddi məsələlər var idi: "Dağlıq Qarabağ münaqişəsinin həll olunmasından tutmuş, Ermənistan rəhbərliyinin bu günlərdə Qarabağa dair səsləndirdiyi kəskin fikirlərədək. Bu görüşdə, sadəcə, Azərbaycana silah satılması məsələsinin müzakirə olunması siyasi gediş idi".

***Günel CƏLİLOVA***

**Ermənilər işğal edilmiş ərazilərə açıq investisiya qoyuluşunu, iri layihələrin həyata keçirilməsini davam etdirirlər. Məlum olduğu kimi, Ermənistan bu günlərdə Qarabağa Arazboyu əraziləri birləşdirəcək yeni Qafan-Xocavənd yolunun çəkilişinə başlayacağını elan edib.**

# Ermənilərin işğal etdikləri Sərsəng su anbarının suyunu başqa istiqamətə axıtmaq layihəsi...



## Hatəm Cabbarlı: *"Azərbaycan yeri gəlsə hərbi vasitələrdən istifadə etməklə Ermənistanın bu layihəsini əngəlləməlidir"*

Bu, Qarabağı Ermənistana birləşdirən üçüncü yol olacaq və Arazboyu işğal edilmiş ərazilərin məskunlaşdırılmasına hesablanıb. Bunun ardınca isə onlar işğal etdikləri Azərbaycan ərazilərində daha bir irimiqyaslı infrastruktur layihəsi başladıblar.

Erməni KİV-nin verdiyi məlumata görə, bu dəfə işğalçılar Matagis kəndini Ağdərə şəhəri ilə birləşdirən su kanalı çəkirlər. Məqsəd həm də işğal edilmiş Ağdam rayonunun əkin sahələrini suvarmaqdır. Layihə barədə qondarma "DQR"in keçmiş "baş naziri", hazırda "Sərsəng SES"in rəhbəri olan Araik Arutyunyan məlumat verib. O deyib ki, layihə Sərsəng SES-in davamı olacaq. 4 yeni su elektrik stansiyası və 2 kanal tikiləcək, ardınca beşinci SES inşa ediləcək və nəticədə 200 milyon kilovatt saat elektrik enerjisi hasil olunacaq. Habelə 10 min hektar əkin sahəsi suvarılacaq. Layihəyə 100 milyon dollar investisiya qoyulacaq, bu Qarabağda son illərdə həyata keçirilən ən iri layihələrdən biridir.

Arutyunyan deyib ki, su kanalının tikintisi Ağdərə, Ağdam, Xocavənd rayonlarında indiyə qədər susuzluqdan əkilib-becərilməyən əkin sahələrinin suvarılması problemini həll edəcək.

Qeyd edək ki, indiyə qədər ermənilər onsuz da Sərsəng su anbarından Azərbaycanın nəzarətində olan ərazilərə yaz-yay aylarında suyun ötürülməsinə məhdudiyyətlər yaradırdılar, payız-qış aylarında isə artıq suyu anbardan buraxmaqla Tərtər ərazisində subasmaya səbəb olurdular. Azərbaycan dəfələrlə ATƏT və digər beynəlxalq təşkilatlar qarşısında Sərsəng su anbarı ilə bağlı məsələni qaldırıb.

İndi isə belə görünür ki, yeni su kanalının çəkilməsi ilə işğalçılar Azərbaycanın nəzarətində olan ərazilərə gələn suyu daha çox məhdudlaşdıracaqlar. O cümlədən işğal altındakı Ağdamın əkin sahələrini suvarmaya yönəldiləcək və beləliklə də Ağdamda məskunlaşdırma üçün daha geniş imkan yaranacaq.

Çox maraqlıdır ki, bütün bu proseslər dünya birliyi və vasitəçilik missiyasını üzərinə götürən ölkələrin gözü qarşısında baş verir. Ermənilərin işğal faktını açıq sübut edən bu əməllərinə niyə beynəlxalq reaksiya verilmir, bu proseslərin dayandırılması üçün hansı addımlar atılmalıdır?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı baki-xeber.com-a bildirdi ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi faktına bölgədə marağı olan böyük dövlətlər təəssüf ki, barmaqarası baxır: "Bunu başqa cür ifadə etmək mümkün deyil. Bu biganəlik uzun müddətdir ki, davam edir. Azərbaycan torpaqları Ermənistan tərəfindən işğal edildiyi vaxtdan indiyə qədər dünyanın nüvuzlu ölkələri və təşkilatları Ermənistana qarşı heç bir siyasi və iqtisadi embarqo tətbiq etməyiblər. Vəziyyət belə olan təqdirdə, əlbəttə ki, Ermənistan işğalçı siyasətini davam etdirəcək və həmin ərazilərin potensialından maksimum istifadəyə çalışacaq. Erməni KİV-ində yeni su kanalının tikilməsi barədə informasiyalar gedir. Bu, kanal Ağdam ərazisinin suvarılması və yeni su elektrik stansiyalarının tikilməsi üçün nəzərdə tutulur. Bu barədə, hətta "DQR" rəsmiləri də məlumat verib və layihənin əhəmiyyətini yüksək dəyərləndiriblər. Bu amil həm də Sərsəng su anbarından Azərbaycanın istifadə etmə imkanlarını maksimum məhdudlaşdırır. Xatırlayırsınızsa bir neçə il əvvəl Ermənistan tərəfi Sərsəng su anbarının Azərbaycanla birgə işlətmək məsələsini gündəmə gətirmişdi. İşğalın davam etdiyi zamanda Azərbaycanın belə təklifə müsbət cavab verməsi mümkün deyildi. Ancaq bu gün Ermənistan bütün beynəlxalq hüquqa məhəl qoymadan, işğal etdiyi ərazilərdə abadlaşdırma adı ilə mühüm iqtisadi layihələr həyata keçirir. Verilən məlumatdan görünür ki, layihənin dəyəri 100 milyonla ölçülür. Bu olduqca yüksək bir rəqəmdir. Qondarma rejim və Ermənistanın iqtisadi problem içində çabaladığı bir vaxtda belə bir məbləğin ayrılması olduqca şübhəlidir. Azərbaycan bununla bağlı problemin həlli ilə məşğul olan ATƏT-in Minsk Qrupuna, Avropa Şurasına müraciət edib, onlar qarşısında Ermənistanın konkret olaraq bu layihələrin dayandırılması ilə bağlı tələb qoymalıdır. Sözügedən qurumların məsələyə münasibətinin necə olacağından asılı olmayaraq bu addımlar atılmalıdır. Ermənistan layihəni həyata keçirərsə, bu Azərbaycanın həmin əraziyə yaxın rayonlarında ciddi su probleminə gətirib çıxara bilər. Bu, həm də bizə qarşı ekoloji, iqtisadi cinayətdir. Azərbaycan yeri gəlsə hərbi vasitələrdən istifadə etməklə Ermənistanın bu layihəsini əngəlləməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

**Soçidə planlaşdırılan Rusiya-Azərbaycan-İran sammitinin təxirə salınması fonunda bu tədbirin nə vaxt baş tutacağı xüsusi maraq doğurur. Bu arada xatırladaq ki, Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov üç ölkə liderlərinin görüşünün təxirə salınmasının səbəbini açıqlayıb.**

# Azərbaycan-İran-Rusiya üçtərəfli formatı yeni sınaqda... Ermənistan şokda... Azərbaycan açar mövqedə...

Onun sözlərinə görə, Rusiya, İran və Azərbaycanın dövlət başçılarının görüşünün təxirə salınması prezidentlərin iş qrafiklərinin daha müfəssəl əlaqələndirilməsi və bu qrafiklərin sinxronlaşdırılması üçün uyğun vaxtın seçilməsi ilə əlaqədardır.

Rusiya rəsmisi görüş üçün hazırlıqların davam etdiyini deyib. Beləliklə, istənilən halda görüşün cari il ərzində baş tutması gözlənilir. Xatırladaq ki, Rusiya-İran-Azərbaycan üçtərəfli sammiti 2016-cı ildən keçirilirdi. İndiyə qədər bu formatda iki sammit Tehranda və Bakıda baş tutub. Hazırda dünyada geosiyasi və geoiqtisadi reallıqlar fonunda üçtərəfli formatda belə görüşün baş tutması və onun nəticələri olduqca mühüm sayılır. Bu amil ölkələrə regionda mövqeyini daha da gücləndirməyə imkan verir. Məsələn, Azərbaycan bu şəraitdə regionda daha güclü mövqe sahibinə çevrilir. Elə bu səbəbdəndir ki, qeyd olunan formatda davam edən görüşlər Ermənistanda böyük ajiotajla qarşılanır. Düşmən ölkədə hesab edilir ki, Azərbaycan Rusiya və İranı Ermənistandan sürətlə uzaqlaşdırır. Rusiya və İran isə indiki məqamda Azərbaycanla əməkdaşlığa xüsusi önəm verir. Rusiyanın "regnum.ru" portalı yazır ki, əslində, Azərbaycan Rusiya-İran münasibətlərinin inkişafında da artıq xüsusi rola malikdir: "Yaxın tezlikdə Rusiya, Azərbaycan və İran prezidentləri Vladimir Putin, İlham Əliyev və Həsən Ruhaninin görüşü baş tutacaq. Onlar belə formatda artıq dördüncü dəfə sammit keçirirlər. İlk görüş 2016-nın yayında Bakıda, ikincisi 2017-nin payızında Tehranda olub. Üçüncü görüş 2018-in avqustunda "Xəzər beşliyi" sammiti çərçivəsində keçirilib.



Bu bildirir ki, Qərbin bir çox ekspertlərinin "mürəkkəb" hesab etdikləri "Moskva-Bakı-Tehran" üçbucağındakı münasibətlər sistemi dayanıqlı xarakter alır. Bu da aşkardır ki, tərəflər uzunmüddətli birgə qarşılıqlı fəaliyyətə tuşlanmağı müəyyən ediblər. Əlbəttə, söhbət birinci növbədə energetika, nəqliyyat, "Şimal-Cənub" dəhlizində logistik infrastrukturun inkişafı kimi sahələrdən gedir ki, bu da prinsipcə qeyri-adi coğrafi parametrli bölgədə yeni inteqrasiya sistemi formalaşdıra bilər. Xüsusən də "Rusiya-Fars körfəzi" nəqliyyat dəhlizinin meydana çıxması gerçək olur. Lakin üç ölkə arasında ticari-iqtisadi işbirliyini genişləndimək və inkişaf məsələləri öndə gəlir, amma bu amil Qərbdə çoxlarının "əsəblərini qıdıqlayır".

Problem başqa şeydədir. "Moskva-Bakı-Tehran" üçbucağında istər Moskva, istərsə də Tehran ABŞ və onun Qərb tərəfdaşları tərəfdən müxtəlif səbəblərdən və müxtəlif cür sanksiyalar rejiminə məruz qalıb. Bundan savayı, Rusiya və İran Suriya yönündə alyansdadır ki, bu da iki ölkəni obyektiv şəkildə yaxınlaşmağa itələyərək, Avrasiya məkanında iki önəmli qurşağı göstərir: şimalda Moskvanı, cənubda Tehranı. Bakı aralıq və daha mürəkkəb durumda görünür, çünki ABŞ müəyyən şəraitdə onu antiiran sanksiyalarına qoşulmağa meylləndirməyə başlayar. Amma indiyə qədər Bakıya belə təzyiq cəhdləri iflasa uğrayıb. Üç ölkə liderlərinin gözlənilən danışıqlarının tematikası hələlik bildirilməsə də, şübhə doğurmur ki, burada əsas mövzular yeni nəqliyyat dəhlizlərini mənimsəmək, ümumi energetik qurşaq yaratmaq, "Şimal-Cənub" layihəsi üzərindən "İpək yolu"nun cənub dəhlizinə çıxışını təmin etmək olacaq. Eyni zamanda aydındır ki, belə layihələri gerçəkləşdirmək üçün bölgədə sabit siyasi durum gərəkdir. Bax, tərəflər buna görə bu haqda hökmən fikir mübadiləsi aparacaqlar, xüsusən də Vaşinqtonun Tehran üçün ifadə etdiyi təhdidlər işığında. Burada başlıcası Rusiya, İran və Azərbaycan üçün ümumi maraqları, qəliz beynəlxalq və bölgəsəl durumda uzlaşdırılmış siyasət yürütmək imkanlarını üzə çıxarmaq olacaq. İş burasındadır ki, belə üçtərəfli görüşlər keçirmək təşəbbüsü Bakıya məxsusdur. Bu, İranın nüvə proqramı üzrə Vyana sazişi imzalandıqdan dərhal sonra İran ətrafındakı durum əlverişli şəkildə formalaşmağa və onu sanksiyalar rejimindən çıxarmağa başlayanda meydana çıxıb və nəticədə Tehran Moskva və Bakı üçün ən əlverişli tərəfdaş kimi ortaya çıxıb.

İndi "üçlüyün" geopolitik perspektivi, onun bölgəsəl ittifaq formalaşdırmağa meyllənməyi, ya da ikirətəfli münasibətlərə təsir edəcək hadisələrin necə inkişaf edəcəyi və Bakının bundan sonra təkcə Moskva və Tehran arasında deyil, həm də Qərblə uğurlu balans siyasəti aparmağa nail olub-olmayacağından asılıdır. Hələlik isə böyük ehtimal payı ilə iddia etmək olar ki, üç ölkənin lideri növbəti görüşdə maksimum üzrə oynamağa çalışacaq. Amma açar rol yenə də Azərbaycana, balansı, ya da Qərb və Rusiya ilə İran arasındakı qarşıdurmada tərəfsizliyi saxlamaq imkanlarına qalır. Üç dövlət liderlərinin yeni təması bu baxımdan çox şeyi dəyişə bilər".

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan-Rusiya-İran üçtərəfli formatı Ermənistanda qıcıq yaradır. Çünki son dövrlərə qədər Rusiya Ermənistanın təhlükəsizlik məsələləri üzrə ən yaxın tərəfdaşı olub, İran isə Ermənistanın çıxışının olduğu iki ölkədən biridir. Belə olan halda, bu ölkələrlə Azərbaycanın yaratdığı üçtərəfli format Ermənistanı narahat etməyə bilməz. Çünki Ermənistan düşdüyü blokada vəziyyətindən çıxmaq üçün bütün vasitələrdən istifadə etməyə çalışır. Amma Azərbaycan bunun qarşısını alır və buna görə də barəsində bəhs edilən üçtərəffli format Ermənistan üçün şok effekti yaradır.

**Bu format regionda Ermənistanın əhəmiyyətsiz bir ölkə olduğunu və yalnız bəzi qüvvələrin əlində siyasi "oyuncaq" kimi istifadə olunduğunu sübut edir. Əsas geoiqtisadi məsələlər isə Azərbaycanla müzakirə olunur. Eyni zamanda bu format bir daha Azərbaycanın Ermənistanı bütün regional infrastruktur layihələrindən kənarda saxlamaq strategiyasının uğurla həyata keçirilməsinin göstəricisidir.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# "Ermənistan, Qarabağ və diaspor arasında konsensus yalnız Paşinyansız mümkündür"

**Ötən ay Ermənistan rəsmilərinin ABŞ-a çoxsaylı səfərləri fonunda İrəvan Vaşinqtondan hansısa dəstək alacağına böyük ümidlər bəsləsə də, hadisələrin gedişi tamamilə bunun əksini göstərir. Ermənistanın bütün yalvar-yaxarlarına baxmayaraq, ABŞ bu ölkə ilə iqtisadi münasibətlərini tədricən məhdudlaşdırır.**

ABŞ-ın Ermənistan və zəbt edilmiş Azərbaycan ərazilərində yaradılan qondarma quruma maliyyə yardımının ləğv edilməsi barədə qərarı da bunun real təsdiqi sayılır. Azərbaycana ayrılan yardımın həcmində bu fonda qeydə alınan artım isə, ermənilərə görə, artıq Vaşinqtonun Bakı və İrəvana fərqli münasibətlərinin real göstəricisidir.

Aydındır ki, belə vəziyyət Dağlıq Qarabağ münaqişəsinə yanaşmada da özünü mütləq şəkildə büruzə verəcək. Erməni politoloq Suren Sarkisyan da vurğulayır ki, ABŞ-ın tutduğu mövqe, Qarabağ məsələsi də daxil olmaqla, bütün istiqamətlər üzrə Ermənistanın əleyşinə işləyir. O, bu vəziyyətdə ABŞ-ın Ermənistan şirkətlərinə sanksiyalar tətbiq etməsinin də İrəvanaa müsbət heç nə vəd etmədiyini vurğulayıb. Xatırladaq ki, ABŞ Ticarət Nazirliyi Ermənistanın İrəvan Əlaqə Vasitələri Elmi Tədqiqat İnstitutu Qapalı Səhmdar Cəmiyyəti və "Markel" Qapalı Səhmdar Cəmiyyətini öz "qara siyahı"sına salıb. ABŞ Ticarət Nazirliyinin məlumatına görə, İrəvan Əlaqə Vasitələri Elmi Tədqiqat İnstitutunun bu siyahıya düşməsinə səbəb QSC-nin ABŞ Təhlükəsizlik və Sənaye Bürosunun kommersiya nəzarəti siyahısında olan malları lazımi lisenziyalar olmadan təkrar ixarc etməsi olub. Digər tərəfdən, Vaşinqtondan hər iki QSC-nin icraçı direktorunun ABŞ sanksiyaları altında olan İran təşkilatları ilə bizneslə məşğul olduğu bildirilib. Nazirlik sanksiyaların artıq qüvvəyə mindiyini vurğulayıb. Amerika hakimiyyət orqanlarının fikrincə, bu erməni şirkətləri milli təhlükəsizliyə və ABŞ xarici siyasətinin maraqlarına zidd hərəkət edirlər. Bütün bunlar isə ABŞ tərəfindən Ermənistana maliyyə yardımının azalmasının ardınca Vaşinqtonun İrəvana daha bir iqtisadi zərbəsi sayılır. Artıq güclü erməni lobbisi belə okeanın o tayında vəziyyəti dəyişməkdə acizlik nümayiş etdirir. Konqresdəki ermənipərəst konqresmenlərin fəaliyyti belə hansısa müsbət nəticələr vermir.

Qeyd edək ki, bin neçə ABŞ konqresmeni USAID təşkilatına məktub ünvanlayaraq, işğal altında olan Qarabağın minalardan təmizlənməsi layihəsinin maliyyələşdirilməsini azaltmağa çağırış edib. ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvləri Bred Şerman və Ticey Koks demokrat və respublikaçı həmkarları tərəfindən imzalanmış, Qarabağda ərazilərin minalardan təmizlənməsi layihəsinin maliyyələşdirilməsini davam etdirməyə yönəlmiş məktubu ABŞ-ın beynəlxalq inkişaf agentliyi olan USAID-ə göndərib. Qeyd olunur ki, məktub 2019-cu ilin sonunda işğal altında olan Qarabağda ərazilərin minalardan təmizlənməsi layihəsinin maliyyələşdirilməsinin dayandırılması qərarına qarşı USAID təşkilatına ünvanlanıb. Məktubda, daha öncə Beynəlxalq inkişaf agentliyinin rəhbəri Mark Qrinin vəd etdiyi kimi, "HALO Trust" təşkilatının öz missiyasını başa çatdırmaq üçün maliyyə yardımını davam etdirməyi xahiş ediblər. Məlumata əsasən, ABŞ Konqresinin bir neçə üzvü "Hay Dat"ın təşəbbüsünə qoşularaq, ABŞ tərəfindən işğal altında olan Qarabağa ayrılan yardımın azaldılmasının əleyhinə çıxış edib. Amma bunun Donald Tramp hökumətinin qərarında hansısa dəyişikliyə gətirib çıxarmasının mümkünsüzlüyünü ermənilər özləri belə etiraf edirlər. Ermənipərəst konqresmenlərin Ağ Evə və Dövlət Departamentinə təzyiqinin nəticəsiz başa çatması mütləq sayılır. Digər tərəfdən hesab edilir ki, yaranmış vəziyyətdə Tramp hökuməti təzyiq cəhdlərinə cavab olaraq erməni lobbisinə qarşı daha sərt mövqeyə keçəcək. Məhz bu vəziyyətdə Ermənistanın baş naziri Nikol Paşinyanın gələn ay ABŞ-a səfərinin də fiasko ilə nəticələnməsi qaçılmaz sayılır.

Məlumat üçün bildirək ki, Paşinyan səfəri fonunda Los-Anceles şəhərində ermənilər qarşısında çıxış etməyi planlaşdırır. Erməni mediasının yazdıqlarından belə bəlli olur ki, ABŞ-dan maliyyə yardımının dayanması fonunda Paşinyan əsas ümidini varlı erməni diasporunun üzvlərinə bağlayıb. Amma erməni lobbisi də əvvəlki kimi Ermənistana, xüsusən də Paşinyana pul ayırmağa hazırlaşmır. Çünki varlı ermənilərin əksəriyyəti bu fonda ABŞ hökumətinin qəzəbinə tuş gələcəyindən qorxur. Bu səbəbdən ABŞ-da Paşinyanın erməni diasporu ilə problem yaşaması istisna olunmur. Erməni polittexnoloq Ruben Akopyan da bunu istisna etmir. O hesab edir ki, Nikol Paşinyan erməni diasporu ilə də getdikcə daha çətin dil tapır: "Hələ Qarabağdakı çıxışı zamanı Paşinyan mesaj verirdi ki, ya o, hakimiyyətdə qalacaq, ya da Ermənistanda hakimiyyət olmayacaq. Paşinyan Qarabağ problemi haqqında qətiyyən heç nə bilmir. Bu gün Ermənistan, Qarabağ və diaspor arasında konsensus yalnız Paşinyansız mümkündür. Məhz Paşinyanın gəlişindən sonra ABŞ-ın, Rusiyanın Ermənistana münasibətləri pisləşməyə doğru gedir. Bura hətta Avropa və İran da daxil edilə bilər. Bunlar indiki vəziyyətdə bizimlə düşmən olan Azərbaycanın əlini gücləndirir".

Ermənistan parlamentinin sabiq deputatı Naira Karapetyan da məsələyə eyni prizmadan yanaşır. Onun sözlərinə görə, Paşinyanın gedişləri ABŞ-da, Rusiyada xoş qarşılanmır. Karapetyan xatırladır ki, avqust ayının 5-də Xankəndidəki meydanda Nikol Paşinyanın "birləşmə" və "Qarabağ Ermənistandır, vəssalam" bəyanatları münaqişənin həlli üzə danışıqlara mənfi təsir göstərərək, ABŞ da daxil olmaqla, vasitəçi ölkələr tərəfindən xoş qarşılanmır: "Buna görə də, danışıqlar prosesi İrəvan üçün çox başağrısı yaradacaq. İlk növbədə belə bir məqamda Qarabağdakı rejimin danışıqlar masasına qayıtması qeyri-mümkündür. Bizə və şəxsən baş nazir Paşinyana "birləşmə" tezisinin gündəmə qaytarılması nə verdi, bu əsassız populizmin partlaması, yoxsa hesablanmış proqramın bir hissəsi idi? İndiki məqamda bunun yalnız daxili auditoriyaya hesablanmış və daxili problemləri həll etmə bucağından nəzərdən keçirilməli olduğu iddia edilə bilər. Bu məsələdən, yumşaq desək, xarici siyasət hər hansı fayda əldə etməyib. Ona görə də xarici siyasətdə daha çox təzyiqlər gözləniləndir. Elə ABŞ-ın azaltdığı maliyyə yardımları da bunun təzahürü hesab oluna bilər".

Karapetyan onu da xatırladır ki, baş verənlərə Azərbaycanın reaksiyası gecikmədi və Azərbaycan Prezident Administrasiyasının xarici əlaqələr şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan baş nazirinin bəyanatını təxribat kimi qiymətləndirərək bunları dedi: "Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, qoy heç kim buna şübhə etməsin. Bunun nəticələrinə görə məsuliyyət erməni tərəfinin üzərinə düşür". Bu bəyanatdan sonra hansı inkişaf proseslərinin baş verə biləcəyinə dair Karapetyan öz düşüncələrini ifadə edərkən qeyd edib ki, bu cür reaksiya veriləcəyi gözlənilən idi: "Niyə bu məqam nəzərə alınmayıb, yalnız baş nazirin məsələni Xarici İşlər Nazirliyi ilə müzakirə etmədiyini ehtimal etmək qalır. Azərbaycan XİN-in və Hikmət Hacıyevin bəyanatları məntiqə uyğundur. Ermənistanın demonetasiyasını daxili auditoriyadan beynəlxalq platformaya keçirmək üçün Azərbaycanın belə bir mövzuya ehtiyacı vardı".

Karapetyan Hikmət Hacıyevin bəyanatının ciddiliyini nəzərə alaraq, bunun verə biləcəyi nəticələri açıqlamamağa üstünlük verib: "Azərbaycan bunu hələ çox uzun zaman müxtəlif platformalarda səsləndirəcək. Erməni diplomatiyası bunun nəticələrini silmək və neytrallaşdırmaq üçün çox səy göstərməli olacaq. Ermənistan Xarici İşlər Nazirliyinin reaksiyasının layiqli olub-olmadığına gəldikdə isə, qısa desək, Ermənistan Xarici İşlər Nazirliyi diplomatik söz ehtiyatına və etika qaydalarına əməl edərək, hələ ilkin addımı atıb. Lakin erməni tərəfinin bəyanatında Ermənistan-Qarabağ-Azərbaycan xalqlarına məqbul olan variantın axtarılması tezisinin vurğulanması narahatlıq yaradır. Bu fikri ilk dəfə Paşinyan ifadə edib, daha sonra müsahibələrində təkrarlayıb, indi isə Xarici İşlər Nazirliyi bunu ifadə edir. Erməni xalqının bir hissəsinin ayrı göstərilməsi məni narahat edir. Eyni zamanda ehtimal edilən müharibə zamanı Naxçıvan istiqamətində daha bir cəbhə açma ehtimalı ilə son atışmaları xatırlamaq lazımdır. Azərbaycanın güzəştlərə gedə biləcəyini təsəvvür etmirəm. Ermənistan balanslaşdırılmış siyasət aparmalıdır və axsamağa haqqı yoxdur... Erməni tərəfinin bu bəyanatındakı "bütün tərəflər" kəlməsi düzgün ifadə edilməyib. Bu kəlmə Ermənistanı münaqişə tərəfinə çevirir. Azərbaycan bunlardan məharətlə istifadə edir. İndi bu durumda Azərbaycan diplomatiyası bizə daha çox təzyiqlər göstərəcək. Xüsusən də Rusiya və ABŞ istiqamətində onların fəaliyyətinin genişlənməsini gözləmək lazımdır.

Bakı göstərməyə çalışacaq ki, Ermənistan danışıqlarda vasitəçilik edən həmsədrlərin, xüsusən də region uğrunda mühüm maraqlara malik ABŞ və Rusiyanın vasitəçilik missiyasını da ayaqlar altına atır". Sabiq erməni deputat indiki vəziyyətdə ABŞ-ın sərtləşən mövqeyinin arxasında belə məqamların da yer aldığını istisna etmədiyini bildirir: "ABŞ Ermənistana qarşı artıq təzyiqlərə başlayıb. Maliyyə yardımı məsələsi ətrafında baş verənlər bunun təzahürüdür. Bunun bir qədər də dərinləşməsi mövqelərimizin daha da zəifləməsi deməkdir. Azərbaycan yaranmış vəziyyətdə daha çevik hərəkətə keçməyə çalışacaq".

Bütün bunlar hadisələrin mövcud inkişaf axarının heç də Ermənistanın lehinə olmadığını, düşmənin mövqelərinin sürətlə sıradan çıxmaqda olduğunu göstərir. Belə vəziyyətdə Ermənistana xaricdən, o cümlədən ABŞ-dan gələn maliyyə yardımlarının azalması bu ölkənin daha da zəifləməsi deməkdir. Təbii ki, bu durumda Dağlıq Qarabağ münaqişəsi ətrafında düşmənin müqavimət imkanları da sürətlə sıradan çıxır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyan Qarabağ mitinqindən sonra Los-Anceles erməniləri ilə məsləhətləşməyə gedir

**Suda boğulan saman çöpündən yapışır. Bu gün yaratdığı siyasi və iqtisadi böhran içində boğulan Ermənistanın Baş naziri Nikol Paşinyan vəziyyətdən çıxış yolu axtarır. Dövlət başına küçədən gələn və küçə əxlaqına sahib olan Paşinyanın avantürist çıxışları, eləcə də atdığı qeyri-məntiqi addımları Ermənistan cəmiyyətini, sözün həqiqi mənasında, uçurum qarşısına gətirib çıxarır.**

*”...ABŞ-a səfərinin əsas səbəbi özünün sərsəm ”Dağlıq Qarabağ Ermənistanındır” planını reallaşdırmağa yönəlib”*

Avqustun 5-də Xankəndidə keçirdiyi ümumerməni mitinqində qeyri-real açıqlamalarla çıxış edən və erməni xalqını böhrana sürükləyən fikirlər səsləndirən Paşinyan erməni xalqını "Qarabağ uğrunda birləşmə"yə çağırdı. Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsinə birbaşa ağır zərbə olan çıxışları erməni cəmiyyətində də normal qarşılanmır. Xaricdə fəaliyyət göstərən erməni lobbisindən son zamanlar elə də ciddi dəstək ala bilməyən Paşinyanın əlavə kömək qaynaqları aradığı məlumdur. Avropada fəaliyyət göstərən erməni lobbisinin inamsızlığı ilə qarşılaşan Paşinyan indi də kömək üçün əlini ABŞ-da fəaliyyət göstərən erməni diasporuna uzadır.

Belə ki, Ermənistanın Baş naziri Nikol Paşinyan ABŞ-ın Los-Anceles şəhərinə səfərə hazırlaşır. Bu barədə məlumatı Paşinyan "Facebook"da təşkil etdiyi canlı yayım zamanı paylaşıb. Erməni KİV-in yaydığı məlumata görə, o, Los-Ancelesdə ermənilərlə görüşlər keçirməyi planlaşdırdığını bildirir. Paşinyan görüşün sentyabrın 22-si, saat 16:00-da baş tutacağını deyib.

Paşinyan ABŞ-da Xankəndidə müzakirə etdiyi məsələləri, o cümlədən, "miatsum" və s.-ni gündəmə gətirəcəyini açıqlayıb.

Paşinyanın Los-Ancelesə səfəri nə ilə bağlıdır? O, Los-Ancelesin erməni diasporundan istədiyi dəstəyi ala biləcəkmi?

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə bildirdi ki, Paşinyanın Los-Anceles səfərinin əsas səbəbi Xankəndidə keçirdiyi erməni mitinqində səsləndirdiyi cəfəng fikirlərin, ideyaların həyata keçirilməsi üçün oradakı erməni lobbisindən dəstək almaqdır. "Təbii ki, Ermənistan Baş nazirinin bu cür səfərlərinin baş tutması Qarabağ münaqişəsinin taleyindən narahatlığı ilə əlaqədardır. Son günlər Dağlıq Qarabağın taleyi ilə bağlı Ermənistan rəhbərliyi çox aqressiv mövqe tutur. Paşinyanın özünün Xankəndidə keçirilən mitinqə gəlməsi və burada çıxışlar etməsinin özü böyük qanun pozuntusudur. Təəssüf ki, beynəlxalq qurumlar da bu məsələni susqunluqla qarşıladılar. Eyni zamanda da Paşinyan orada sərsəm "miatsum" ideyasını yenidən dirçəltdi, rəsmi qaydada dövlət rəhbəri səviyyəsində elan etdi ki, "Dağlıq Qarabağ Ermənistandır". Bu günlərdə Paşinyanın bu cəfəng

***Akif Nağı:*** *”O, Los-Ancelesdəki erməni lobbisindən maliyyə dəstəyi ummaqla yanaşı, eyni zamanda Qarabağ məsələsi ilə bağlı erməni diasporunun birmənalı dəstəyini qazanmaq istəyir”*



fikrini Ermənistanın Xarici İşlər Nazirliyi ört-basdır etmək məqsədilə bəyan etdi ki, Paşinyan elə deməyib və onun fikri kontekstdən çıxarılıb. Amma xarici işlər naziri Mnatsakanyan özü açıq şəkildə bəyan etdi ki, Dağlıq Qarabağ Ermənistanın ayrılmaz hissəsidir. Yəni bu gün Dağlıq Qarabağ məsələsi ilə bağlı Ermənistan rəhbərliyinin mövqeyi açıq şəkildə ortadadır. Ona görə də Ermənistan Baş nazirinin ABŞ-a səfərinin əsas səbəbi özünün sərsəm "Dağlıq Qarabağ Ermənistanındır" planını reallaşdırmağa yönəlib. Bu baxımdan, Paşinyanın Los-Ancelesə səfəri təsadüfi deyil. Bilirsiniz ki, burada çox böyük erməni lobbisi fəaliyyət göstərir, o ərazi ABŞ-da ermənilərin ən çox yaşadığı ərazilərdən biri sayılır. Yəqin ki, Paşinyan erməni lobbisinin iştirakı ilə bir mitinq keçirib Xankəndidə səsləndirdiyi cəfəng fikirləri orada da dilə gətirəcək. Paşinyanın Dağlıq Qarabağla bağlı planını həyata keçirmək üçün maliyyəyə də ehtiyacı var. O, Los-Ancelesdəki erməni lobbisindən maliyyə dəstəyi ummaqla yanaşı, eyni zamanda da Qarabağ məsələsi ilə bağlı erməni diasporunun birmənalı dəstəyini qazanmaq istəyir. O bu mənfur planını həyata keçirmək üçün Los-Ancelesdə fəaliyyət göstərən erməni lobbisindən hərtərəfli dəstək istəyir. Paşinyan bununla da dünyaya meydan oxuyur ki, onların Dağlıq Qarabağı və işğal altında saxladıqları digər ərazilərimizi qaytarmaq fikirləri yoxdur. O bununla da dünyada fəaliyyət göstərən erməni lobbisinin tam dəstəyini qazanmaq istəyir. Hesab edirəm ki, Los-Ancelesdə keçirilən görüşdə yalnız burada yaşayan ermənilər deyil, başqa ölkələrdən gələn ermənilər də iştirak edəcəklər. Ən azından, diaspor nümayəndələri dəvət ediləcək. Fikrimcə, Azərbaycan tərəfi Paşinyanın bu cəfəng ideyasının pozulması istiqamətində işlər görməli və bu barədə beynəlxalq qurumlara müraciət etməlidir".

A.Nağı hesab edir ki, Paşinyanın bu cür görüşlər keçirməsinin və cəfəng planlar qurmasının, həmin planların həyata keçirilməsinin qarşısının alınması üçün beynəlxalq qurumlar hərəkətə keçməlidirlər.

***İradə SARIYEVA***

# İran zənginləşdirilmiş uran ehtiyatının artırılması istiqamətində daha bir addım atdı



**İran zənginləşdirilmiş uran ehtiyatını artırıb. Baki-xeber.com xəbər verir ki, bunu İran dövlət televiziyasına müsahibəsində bu ölkənin Atom Enerjisi Agentliyinin sözçüsü Bəhruz Kamalvəndi deyib.**

Onun sözlərinə görə, İran 4,5 faiz səviyyəsindəki zənginləşdirilmiş uran ehtiyatını 300 kq limitini aşaraq 370 kiloqrama çatdırıb. Bu rəqəmin sürətlə artacağını deyən Kamalvəndi əlavə edib ki, ağır su ehtiyatını da 130 tondan yuxarıya çıxarmaq nəzərdə tutulur və bu istiqamətdə hər hansı bir məhdudiyyət yoxdur.

Qeyd olunub ki, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü ilə Tehran arasında 2015-ci ildə imzalanmış sazişin şərtlərinə görə, İran ən çox 300 kiloqram zənginləşdirilmiş uran ehtiyatına malik ola bilərdi. Sənəddə bu miqdardan artıq olan uranın beynəlxalq bazarda satılması və əvəzində təbii uran əldə edilməsi nəzərdə tutulurdu. Bundan başqa, sazişdə Tehranın ağır su ehtiyatını 130 tondan yuxarı çıxarmayacağı da qeyd olunub.

**ABŞ hökumətinin 2018-ci ilin mayında bu sazişdən çıxdığını bəyan etməsindən və İrana qarşı sanksiyalar tətbiqindən sonra İran özünün nüvə proqramı üzrə öhdəliklərini qəti şəkildə yerinə yetirməyəcəyini bəyan edib.**

# Qədim Kilikiya erməni çarlığı? Yeni qədim dövlətçilik uydurması...

## *Vaqif Abışov: "Ermənilərin Kilikiya çarlığı ilə heç bir tarixi əlaqəsi yoxdur"*

**Qədim "dövlət" axtarışında olan ermənilər özlərini bir sıra dövlətlərə pərçim etməkdən yorulub bezmirlər. Tarixdə heç bir dövləti və dövlətçilik ənənəsi olmayan hayların ilk dövləti XX əsrdə Azərbaycanın tarixi torpaqlarında qurulub. Buna qədər isə onlar ayrı-ayrı dövlətlərin tərkibində öz mövcudluqlarını qoruya biliblər.**

Bizansa xəyanətdən sonra Sasanilərə, Osmanlılara, sonrakı yüzilliklərdə isə ruslara sığınan ermənilərin ərazi iddiaları bitib tükənmək bilmir.

Məlum olduğu kimi, sığındıqları bütün dövlətlərə kürəkdən bıçaq zərbəsi endirən ermənilər xristianlığın parçalanmasında xüsusi rol oynayıblar. Belə ki, xristianlığı ilk dəfə onlar parçalayıb və özlərinin qondarma qriqoryan təriqətlərini yaradıblar.

Dağıdıcılıq və saktakarlıq sahəsində mahir olan ermənilər bütün qədim dövlətləri öz adlarına çıxmaqda davam edirlər. Onların açıq şəkildə iddia etdikləri ərazilərdən biri isə Kilikiyadır. Ermənilər iddia edirlər ki, "Kilikiya erməni çarlığı" mövcud olub və bu çarlıq 1198-ci ildə tarixi Kilikiya vilayətində yaradılıb. Guya "Kilikiya erməni çarlığı"nın ilk kralı I Levon olub. Onlar yalandan qeyd edirlər ki, çarlığın rəsmi kilsəsi erməni qriqoryan kilsəsi olub.

Azərbaycan, Türkiyə, İran, Gürcüstan, eləcə də Avropaya qarşı ərazi iddiaları irəli sürən ermənilər uzun illərdir Kilikiyaya da əl uzadırlar. Yalandan yazırlar ki, guya bu ərazi ermənilərin tarixi çarlığının mövcud olduğu yerdir.

Bu günlərdə Türkiyənin hüquq-mühafizə orqanları İstanbulda keçirdikləri əməliyyat zamanı 920 sikkə və o sikkələrin hazırlandığı qəlib aşkarlayıblar. Həmin sikkələrin təhqiqat zamanı Bizans, Ellin və Kilikiya mədəniyyətinə aid olduğu bildirilir.

Qeyd edək ki, həm Bizans, həm Ellin, həm Kilikiya ərazilərinə iddialı olan ermənilər Kilikiya dövrünə aid sikkələrin ermənilərlə bağlı olduğunu qeyd etməkdən çəkinmirlər. Bu sikkələrin üzərində isə ermənilərlə bağlı hər hansı bir cizgi yoxdur.

Tarixçilərin bildirdiyinə görə, ermənilərin xristianlığı qəbul etməsi xristianlıq aləmində böyük parçalanmanın yaranmasına səbəb oldu. Onların xristianlıqdan bir alət kimi istifadə etdiyini qeyd edən tarixçilər hesab edirlər ki, özünü bütün qədim dövlətlərə yamaq edən ermənilər xristianlığı qəbul etməklə xristian dövlətlərindən dəstək güdüblər. Xristianlığın ilk beşiklərindən birinin Albaniya olduğunu deyən tarixçilərin bildirdiyinə görə isə xristianlıq Azərbaycan ərazisində formalaşıb. Ermənilər isə bu dini əsrlər sonra qəbul ediblər.



*"...onların növbəti uydurmasından başqa bir şey deyil"*

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov bizimlə söhbətində Kilikiyada ermənilərin heç bir dövlətinin, çarlığının olmadığını bildirdi. "Ermənilərin Kilikiya çarlığına iddiası yeni məsələ deyil, onlar uzun illərdir bu məsələni gündəmdə saxlayırlar. Halbuki, ermənilərin Kilikiya çarlığı ilə heç bir tarixi əlaqəsi yoxdur. Ümumiyyətlə, ermənilərin Kilikiya çarlığı adlı dövləti olmayıb. Tarixdə Kilikiya çarlığı haqqında məlumat var. Ermənilər də ola bilsin, başqa xalqlar kimi, həmin çarlığın ərazisində yaşayıblar. Bu gün onlar nəinki Kilikiyaya, hətta Türkiyə ərazisinə, eləcə də Afrikanın şimalına, Efiopiya, İran, Gürcüstan, Azərbaycan ərazisinə də əsassız olaraq iddia edirlər. Yəni ermənilər dünyanın müxtəlif ölkələrinə qarşı belə mövqe tuturlar ki, guya filan ölkədə onların qədim dövlətləri, çarlıqları olub. Onlar iddia edirlər ki, guya Kilikiyada çarlıqları olub, Van, Qars və digər ərazilər onların tarixi torpaqlarıdır. Bilirsiniz, bunlar hamısı yalan və saxtakarlıqdan başqa bir şey deyil. Ermənilər saxta tarix yaratmaqda çox ustadırlar və Kilikiyada erməni çarlığının olması barədə iddiaları da onların növbəti uydurmasından başqa bir şey deyil".

V.Abışovun sözlərinə görə, keçən əsrin 60-cı illərində görkəmli Azərbaycan arxeoloqu Məmmədəli Hüseynov Azıx mağarasını kəşf etdikdən və burada azıxantropun çənəsini tapdıqdan sonra saxtakarlıqda mahir olan ermənilər azıxantropun erməni olduğunu iddia edib və bu barədə fikirlər səsləndiriblər. "Mərhum arxeoloqumuz Məmmədəli Hüseynov tərəfindən Azıx mağarasından insanın daşlaşmış alt çənəsi tapılandan sonra ermənilər Moskvada hay-küy qopardılar ki, bu, erməni çənəsidir, bu ərazi ermənilərindir. O zaman Məmmədəli Hüseynov Moskvada rus alimlərinin yanında sübut etdi ki, bu çənə ermənilərə aid deyil, o, Azərbaycan ərazisindən tapılıb, Azərbaycan da qədim yaşayış məskənidir. Demək istəyirəm ki, nəinki numuzmatik, eləcə də maddi mədəniyyət nümunəsi olan digər tapıntılara qarşı ermənilər həmişə öz əsassız iddialarını ortaya qoyublar. Türkiyədə tapılan sikkələr arasında Kilikiyaya aid olan sikkələrin də olması o demək deyil ki, həmin sikkələr məhz "erməni çarlığına" aiddir.

**Bunu iddia etməyin özü gülüncdür. Düzdür, ermənilərin həmin ərazilərdə yaşamasına dair tarixi mənbələrdə kiçik məlumatlar var, amma o Kilikiyaya aid sikkələrin ermənilərə məxsusluğu absurddur. Ermənilərin dövləti olub ki, qədim sikkəsi də olsun?! Hesab edirəm ki, o sikkələrin erməni çarlığına və erməni hökmdarına heç bir bağlılığı yoxdur. Bu da boş və cəfəng erməni uydurmasıdır" - deyə bildirən V.Abışov hesab edir ki, ermənilərin uydurmaları artıq bütün dünya dövlətləri tərəfindən ikrahla qarşılanır.**

***İradə SARIYEVA***

# Şəhid qəhrəmanlarımız haqqında əsərlərin dərsliklərə salınması...

***Nəzakət Məmmədli:** ”Respublika Xatirə Kitabı ən qiymətli ensiklopedik vətənpərvərlik abidəsidir”*

**1992-ci ildən fəaliyyətə başlayan Respublika Xatirə Kitabı Redaksiyası tariximizin qiymətli, dəyərli səhifələrini özündə əks etdirir. Bəs görəsən, ötüb arxada qalan bu illər ərzində redaksiya heyəti hansı işlər görüb? Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru, "Yada düşdü" jurnalının baş redaktoru və təsisçisi, şair Nəzakət Məmmədli ilə söhbətimizi bu suallar ətrafında qurduq. Baş redaktor illərin tarixini geriyə vərəqləyərək dedi:**

- İyirmi ildən çoxdur Respublika Xatirə Kitabı Redaksiyasında çalışıram. 1997-ci ildə Xatirə kitabının 1-ci cildi kiril əlifbası ilə işıq üzü gördü. 2001-ci ilə qədər bu dəyərli kitabın 3 cildini buraxdıq. Hazırda Xatirə Kitabının 16 cildi nəşr olunur. Kiril əlifbası ilə nəşr olunan kitabları da latın əlifbası ilə yenidən çap etdik. Ümumiyyətlə, 20 cildliyin nəşri nəzərdə tutulub.

**- Xatirə Kitabında hansı dövrləri, hansı illəri əks etdirmisiniz?**

- Respublika Xatirə Kitabında 1941-1945-ci illərdən başlayaraq bütün müharibələr, münaqişələr, müstəqillik dövrləri, zorla cəlb edildiyimiz Qarabağ müharibəsi, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş oğul və qızlarımızın adları, döyüş yolları əbədiləşdirib. Düzdür, keçmiş İttifaq dövründə İkinci Dünya müharibəsində həlak olan, itkin düşən döyüşçülər haqqında ensiklopediya çapa hazırlanırdı. Təəssüflər ki, respublikamız üçün nəzərdə tutulmuş 20 cilddən cəmi 3 cildi çap olundu. Biz işə başlayanda fəaliyyətimizi yalnız bunlarla məhdudlaşdırmadıq. Qərara gəldik ki, növbəti cildlərdə Qarabağda şəhid olmuş, itkin düşmüş vətəndaşlarımızdan da bəhs edək. Sonra bu siyahıya Əfqanıstan müharibəsində və Çernobıl faciəsində həlak olanlar da daxil edildi.

**- Redaksiyanızda Qarabağ müharibəsində itkin düşən, ermənilər tərəfindən əsir aparılan vətəndaşlarımızın taleyi ilə bağlı hansı işlər görülür?**

- Əlbəttə, bu istiqamətdə də işlər aparılır. Biz vətəndaşlarımızın taleyinə biganə qala bilmərik. İki ildən artıqdır Dövlət Təhlükəsizlik Xidməti və Dövlət Komissiyası ilə birlikdə əsir və itkin düşmüş vətəndaşlarımız haqqında kitab hazırlayırıq. Əməkdaşlarımızın bu kitabı yazarkən keçirdikləri sarsıntıları, ağrı-acıları sözlə ifadə etmək çox çətindir. Əsirlər erməni qəsbkarlarının başlarına açdıqları oyunlardan, verdikləri işgəncə və əzablardan ürək ağrısı ilə, dilləri yana-yana danışırdılar. Daşnak qəddarlığının sonu yoxdur, bu quldurların qanlı əməlləri insanlıq adına yaraşmayan qara bir ləkədir. Onları dinlədikcə təəssüf hissləri keçirirsən ki, erməni işğalçılarının əzab və işgəncələrinə, cinsi istismarına məruz qalanlar bizim vətəndaşlarımızdır. Biz ermənilərdən hərtərəfli əzab çəkmişik. Həm torpaqlarımız işğal olunub, həm kənd və qəsəbələrimiz, şəhərlərimiz dağıdılıb, həm də vətəndaşlarımız həlak olub, əsir düşüb. Ürək ağrıdan bir fakt da odur ki, daşnakların zülm və istismarına məruz qalan vətəndaşlarımıza yalandan artıq Azərbaycan adlı bir ölkənin olmadığını deyirlər. Məqsədləri də budur ki, qoy əsirlikdə olanlar geri qayıtmağa yerlərinin olmadığını düşünsünlər. Deməli, ermənilər əsirlərə həm mənəvi, həm də fiziki əzab verirlər. Onlar üçün artıq həyatın bitdiyini təbliğ edirlər. Təbiidir ki, bütün bunlar bizim üçün çox ağrılı və əzablıdır. Nə qədər əzablı olsa da bir an olsun işlərimizdən qalmırıq. Çünki bu faciə bizim tariximizin qanlı səhifəsidir. Bütün bunları biz mütləq qələmə almalıyıq. Bütün baş verənləri yazıb gün işığına çıxarmaq, dünya dövlətlərinin, beynəlxalq təşkilatların diqqətinə çatdırmaq günümüzün ən aktual və zəruri işlərindən biridir. Ermənilərin zülm və işgəncələrini mütləq yazıb tarixləşdirməliyik. Tarixləşdirməliyik ki, qoy bütün bunları gələcək nəsillər oxuya-oxuya doztumuzu, düşmənimizi yaxşı tanısınlar. Erməni işğalçılarına qarşı nifrətlə böyüsünlər. Çünki yeri gələndə nifrət ən kəsərli silahdır. Belə bir silaha sahib olsaq, yəqin ki, qələbəni asanlıqla qazanarıq. Artıq əsir və itkinlərin ağrılı həyat yollarından bəhs edən kitabın birinci cildi işıq üzü görüb. İkinci cildi isə bu ilin oktyabr ayında çapa veriləcək. Dörd cilddə nəşri nəzərdə tutulan bu kitablar, əslində erməni faşizminin üzünə oxunan ittiham aktıdır.



**- Göründüyü kimi, qarşınızda heç də asan məsələlər dayanmayıb. Respublika Xatirə Kitabını qısaca olaraq necə qiymətləndirərdiniz?**

- Mənə elə gəlir ki, Respublika Xatirə Kitabı vətənpərvərlik mövzusunda yazılmış ən dəyərli ensiklopedik abidədir. Yaddaşımızın ağrı-acısı və sızıltısıdır. Müharibələri törədən, insanlara ölüm gətirənlər üçün ibrət dərsi verən bir kitabdır.

**- İşləriniz gərgin olduğu qədər də zəruridir...**

- Mən deyərdim ki, həm də məsuliyyətlidir. Biz hər bir şəhidin tərcümeyi-halını, döyüş yolunu yazarkən bir neçə mənbəyə müraciət edirik ki, səhvə yol verməyək. Çünki Respublika Xatirə Kitabı istinad edilən ən etibarlı mənbədir. Ona görə də işimizə böyük məsuliyyət və diqqətlə yanaşırıq. Xatirə kitabları vaxta, zaman baxmır. O həmişə, hər vaxt aktualdır və yəqin ki, aktual olaraq da qalacaq.

**- Azərbaycanın Milli Qəhrəmanları haqqında hazırladığınız kitab çox dəyərlidir. Hiss olunur ki, bu istiqamətdə də böyük işlər görmüsünüz.**

- Qəhrəmanlar haqqında yazılanlar bizim hər kəsin stolüstü kitabı olmalıdır. Çünki böyüməkdə olan nəsillər qəhrəmanlığı, igidliyi onlardan öyrənirlər. 2009-cu ildə Azərbaycanın Milli Qərəmanları haqqında kitabı nəşr etdik. Mən bu kitabı qəhrəmanlıq toplusu da adlandırardım. Bu insanlar torpaq və Vətən uğrunda şəhid olublar. Onlar haqqında yazmaq, yad etmək bizim ən müqəddəs borclarımızdan biridir. Bu müqəddəs borcun öhdəsindən ləyaqətlə gəlməyə çalışırlar.

**- Qarşıda yeni layihələriniz varmı?**

- Respublika Xatirə Kitabı Redaksiyasının ən maraqlı, geniş auditoriya qazanmış layihələrindən biri də "Şəhidlər ölməz-Vətən bölünməz"dir. Biz layihəni "Bakı-Xəbər" qəzeti ilə birgə həyata keçiririk. Layihə çərçivəsində Qarabağ müharibəsində şəhid olmuş igid zabit və əsgərlərimizin cəsurluğu tərənnüm olunur. Tanınmış yazıçı və publisistlərin yazdığı məqalə və oçerklər Xatirə kitablarına salınmazdan əvvəl "Bakı-Xəbər" qəzetində dərc olunur. Biz bu yolla şəhid qəhrəmanlarımızı bir az da geniş tərənnüm etməyə, gənclərimizə vətənpərvərlik hisləri aşılamağa çalışırıq. Və düşünürəm ki, məqsədimizə, məramımıza çatırıq. Gənc nəslin daha da vətənpərvər böyüməsi üçün şəhid qəhrəmanlarımızın döyüş və ömür yolundan bəhs edən əsərlərin dərsliklərə salınması yaxşı olardı. Tarix boyu həmişə belə olub: gənc nəsillər qəhrəmanlardan örnək götürüblər. Biz sınaqdan çıxmış bu yolu uğurla davam etdirməliyik.

**- Gələn il qələbənin 75-ci ilidir. Yəqin ki, Qələbə gününə sizin də töhfələriniz olacaq.**

- Qələbənin 75 illiyi ilə bağlı kitab çapa hazırlanır. Kitabda biz babalarımızın qəhrəmanlığı ilə bərabər Bakı neftinin qələbənin qazanılmasındakı əvəzsiz rolundan da geniş bəhs edəcəyik.

**- Nəzakət xanım, siz şairsiniz, əsərlərinizin ruhundan, məzmunundan hiss olunur ki, yaradıcılığınızın ana xəttini vətənə sevgi, igidlik və qəhrəmanlıq təşkil edir.**

- Söz böyük qüvvədir. Vətənpərvərlik hisslərinin aşılanmasında poeziyanın rolu əvəzsizdir. Yaradıcı adamlar gözəl bilirlər ki, şeir elə belə, heç nədən yaranmır. Qarşılaşdığın hansısa bir hadisə sənə təsir edir, duyğularını tərpədir. Böyük Vətən müharibəsi illərində yazılan şeirlərin həm ön, həm də arxa cəbhədəki əsgərlərdə böyük ruh yüksəkliyi yaratdığını hamımız gözəl bilirik. Bugünkü şair və yazıçılar da bu mövzuda gözəl nümunələr yaradırlar. Düşünürəm ki, döyüşən poeziyaya bütün zamanlarda ehtiyac var. Müharibə şəraitində yaşadığımız günlərdə biz bu mövzuya böyük diqqət yetirməliyik. Yaradıcı bir insan kimi şeir və poemalarımda sabahımızın əsgərlərinə, yurdumuzun keşikçilərinə igidlik, qəhrəmanlıq və cəsurluq aşılamağa çalışıram. Bu gün yalnız silahla deyil, qələmlə də döyüşməliyik. Yurdumuza keşik çəkən əsgərlərimizə arxa və dayaq durmalıyıq.

**- Bu gün vətənin keşiyində dayanan zabit və əsgərlərimizə ürək sözlərinizə də eşitmək xoş olardı.**

- Sözün həqiqi mənasında mən gündəngünə güclənən, qürdətlənən ordumuzla fəxr edirəm, qürur duyuram. Silahlı Qüvvələrimizin zabit və əsgərlərinə yalnız qələbə arzulayıram. İnanıram ki, Azərbaycan əsgəri işğal altında olan torpaqlarımızı azad edərək tarix yazaraq. Bizlər isə bunun canlı şahidi olacağıq.

Söhbəti yazdi:

***Vahid MƏHƏRRƏMOV***

# Naxçıvan Muxtar Respublikası -95

## Azərbaycanda aqrar islahatların əsası Naxçıvanda qoyulub

**Naxçıvan Muxtar Respublikası iqtisadiyyatında kənd təsərrüfatı sahəsi mühüm yer tutur. Bu sahə muxtar respublikanın ümumi daxili məhsulunun (ÜDM) 1/3 hissəsini verir, iqtisadi fəal əhalinin 2/3 hissəsi burada çalışır. Kənd təsərrüfatı məhsullarının becərilməsi üçün muxtar respublikada əlverişli iqlim şəraiti, yüksək temperatur, günəş radiasiyasının yüksək göstəriciləri, məhsuldar torpaqlar var. Burada əkinçilik yalnız suvarma şəraitində mümkündür.**



**Nazim ƏHMƏDOV**
*iqtisad elmləri doktoru, professor*

Bunun üçün çoxlu sayda su anbarları, kanallar, dəryaçalar yaradılıb. İstilik sevən kənd təsərrüfatı bitkiləri olan taxıl, üzüm, tütün, meyvə, bostan-tərəvəz bitkiləri yüksək məhsuldarlığı ilə seçilir.

Hələ 1992-ci ilin əvvəllərində Naxçıvan MR-də Heydər Əliyevin rəhbərliyi altında Culfa rayonunun Şurut və Gal kəndlərində torpaq islahatlarına başlandı. Uğurla həyata keçirilən aqrar islahatların nəticəsində xüsusi mülkiyyətə əsaslanan aqrar münasibətlərin formalaşması prosesinin ilk mərhələsi 2000-ci ildə uğurla başa çatdırıldı. Muxtar respublikanın 205 kəndində olan 132 təsərrüfatda torpaq islahatları aparılıb, 70758 ailəyə və ya 241046 nəfərə torpaq sahəsi verilib. Orta hesabla hər ailəyə 0,80 hektar və ya hər bir nəfərə 2342 kvadratmetr torpaq payı düşüb.

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün 1995-ci ildən bəri əkin sahələri strukturunda dəyişikliklər edilib, əkin sahələri artırılıb. Əkin sahələri 2000-ci ildə 1995-ci ilə nisbətən 30-35 faiz artıb.

Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar.

**Naxçıvan MR-də kənd təsərrüfatı bitkiləri üzrə əkin sahəsinin bölgüsü, hektarla**

| Məhsullar | 2000 | 2005 | 2010 | 2015 |
|---|---|---|---|---|
| Dənli və dənli-paxlalı bitkilər | 15274 | 26764 | 36734 | 39435 |
| Buğda | 8151 | 18634 | 25274 | 26746 |
| Arpa | 4211 | 5516 | 8676 | 9491 |
| Dən üçün qarğıdalı | 1712 | 991 | 727 | 1082 |
| Paxlalı bitkilər | 1200 | 1623 | 2057 | 2116 |
| Şəkər çuğunduru | 2357 | 1547 | 1716 | - |
| Dən üçün günəbaxan | 22 | 212 | 241 | 269 |
| Yem bitkiləri | 10669 | 9767 | 8942 | 9859 |
| Kartof | 1451 | 1990 | 2741 | 2967 |
| Tərəvəz | 4863 | 5686 | 6005 | 6131 |
| Bostan bitkiləri | 2465 | 2844 | 2819 | 2753 |
| Bağlar və giləmeyvəliklər | 2243 | 2746 | 3955 | 4654 |
| Üzüm bağları | 1519 | 923 | 1031 | 1156 |

Cədvəl məlumatlarının təhlili göstərir ki, 2000-2015-ci illərdə dənli və dənli-paxlalı bitkilərin əkin sahəsi 24161, buğda əkin sahəsi 18595, arpanın əkin sahəsi 5280, paxlalı bitkilərin əkin sahəsi 916, dən üçün günəbaxan əkin sahəsi 247, kartof əkin sahəsi 1516, tərəvəzin əkin sahəsi 1268, bostan bitkilərinin əkin sahəsi 288, bağlar və giləmeyvəliklər əkin sahəsi 2411 hektar artıb. Bunun əksinə olaraq isə, son 15 ildə dən üçün qarğıdalının əkin sahəsi 630, yem bitkilərinin əkin sahəsi 810, üzüm bağlarının əkin sahəsi isə 363 hektar azalıb.

1 yanvar 2002-ci il tarixə Naxçıvan MR-in Şərur rayonu üzrə 23 min 971 ailəyə, Babək rayonu üzrə 10 min 860 ailəyə, Ordubad rayonu üzrə 4 min 575 ailəyə, Culfa rayonu üzrə 7 min 854 ailəyə, Şahbuz rayonu üzrə 4 min 118 ailəyə və Naxçıvan şəhəri üzrə 31 ailəyə - cəmi MR üzrə 51 min 409 ailəyə "Torpağın mülkiyyətə verilməsinə dair" Şəhadətnamələr hazırlanıb. Bu, nəzərdə tutulan şəhadətnamələrin 71,9 faizini təşkil edib. Şəhadətnamələrin qalan 28,1 faizi də hazırlanaraq ailələrə təqdim edilib.

Qeyd etmək lazımdır ki, torpağın xüsusi mülkiyyətə verilməsi ilə aqrar sahədə əmlakın özəlləşdirilməsi də başa çatıb. Beləliklə, aqrar islahatların həyata keçirilməsi öz bəhrəsini verib, kənd təsərrüfatı məhsullarının artım meyli güclənib. Əgər 2000-ci ildə kənd təsərrüfatında istehsal olunan məhsulun 99,8 faizi özəl sektorun payına düşürdüsə, 2001-ci ildə kənd təsərrüfatı məhsullarının hamısı özəl sektorda istehsal edilib.

İqtisadi təhlil göstərir ki, muxtar respublikada həyata keçirilən islahatlar aqrar-sənaye potensialından səmərəli istifadə edilməsi üçün zəmin yaradıb. İslahatların müsbət nəticələri göz qabağındadır. Muxtar respublikada təkcə 2003-cü ildə 259,1 milyard manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib. Bu isə 1998-ci illə müqaisədə 42,9, 1999-cu illə müqayisədə 51,3 faiz, 2000-ci illə müqayisədə 29,6 faiz, 2001-ci illə müqayisədə 11,7 faiz çoxdur.

2003-cü ildə bütün təsərrüfat kateqoriyaları üzrə 81,4 min ton taxıl, 14,2 min ton kartof, 53,4 min ton tərəvəz, 41,7 min ton bostan məhsulları, 28,6 min ton meyvə və giləmeyvə və 129 min ton şəkər çuğunduru istehsal edilib.

Naxçıvan MR-sı Dövlət Statistika Komitəsinin verdiyi məlumatlardan aydın olur ki, kənd təsərrüfatının başqa sahələrində olduğu kimi, heyvandarlıq sahəsində də çox böyük irəliləyiş var. Muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın, qoyun və keçilərin sayı islahatlardan sonra ilbeil artmağa doğru gedir.

Mal-qaranın baş sayının artması MR-da bütövlükdə əsas heyvandarlıq məhsullarının istehsalına və adambaşına düşən istehsala öz təsirini göstərmişdir. Statistik materialların təhlili göstərir ki, 2003-cü ildə 1993-cü illə müqayisədə ət istehsalı 77,5 faiz, süd istehsalı 3 dəfədən çox, yumurta istehsalı isə 48,3 faiz artmışdır.

Muxtar respublikada, digər sahələrə yanaşı, aqrar sektorun inkişaf etdirilməsinə xüsusi önəm verilməsi heç də təsadüfi deyil. Bu baxımdan tikintisinə 1983-cü ildə başlanmış və sonradan məlum səbəblər üzündən yarımçıq qalmış, yalnız 2002-ci ildə Naxçıvana səfərindən sonra tikinti işləri bərpa olunmuş Vayxır su anbarında aparılan inşaat işləri Dövlət Proqramına uyğun olaraq 2005-ci ilin sonuna kimi başa çatdırılıb. İstismara verildikdən sonra 16800 hektar əkin sahəsinin suvarılmasını təmin etmiş su anbarı Naxçıvanda kənd təsərrüfatının daha intensiv inkişafına təkan verib və bununla da əhalinin məşğulluğunun artırılmasında, həyat səviyyəsinin yaxşılaşmasında ciddi dönüş yaranmasına səbəb olub.

Qeyd etmək lazımdır ki, texniki xidmət sahəsində ölkə regionları içərisində Naxçıvan regionunda görülən işlər ürəkaçandır. Belə ki, son illərdə aqrar sektorda texniki xidməti həyata keçirən təsərrüfat subyektləri şəbəkəsinin yaradılması işi davam etdirilib. "Naxçıvan Muxtar Respublikasında aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə yaradılmış "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti ona məxsus olan kənd təsərrüfatı texnikasının hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya müddətli satılması sahəsində səmərəli fəaliyyət göstərir. Bu işlərin davamı olaraq 2007-ci ildə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən əlavə olaraq 138 ədəd yeni texnika muxtar respublikaya gətirilmişdir.

Naxçıvan MR iqtisadiyyatında kənd təsərrüfatı mühüm yer tutduğundan bu sahəyə diqqət artır ki, bu da öz bəhrəsini verir. Son ildə muxtar respublikada bitkiçilik məhsulları istehsalının dinamikası aşağıdakı cədvəldə verilib:

**Naxçıvan MR-da bitkiçilik məhsulları istehsalı (min ton)**

| Bitkilərin adı | 1990 | 1993 | 2000 | 2001 | 2002 | 2003 | 2005 | 2007 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Taxıl | 32,2 | 20,0 | 54,4 | 63,1 | 73,7 | 81,4 | 93,2 | 81,6 | 114,9 |
| Kartof | 2,6 | 1,8 | 13,5 | 15,2 | 13,6 | 14,2 | 26,3 | 33,7 | 49,6 |
| Tərəvəz | 20, | 14,8 | 42,7 | 47,8 | 50,2 | 53,4 | 56,4 | 59,8 | 85,6 |
| Bostan məhsulları | 5,3 | 1,0 | 33,6 | 37,2 | 39,9 | 41,7 | 39,8 | 38,5 | 38,7 |
| Meyvə və giləmeyvə | 8,3 | 8,2 | 28,4 | 28,7 | 28,8 | 28,6 | 36,4 | 37,1 | 55,9 |
| Üzüm | 110,9 | 33,0 | 14,0 | 13,8 | 12,6 | 11,4 | 13,3 | 13,7 | 16,2 |

Cədvəl məlumatlarından aydın olur ki, üzümdən başqa digər bütün məhsullar üzrə artım müşahidə olunub, məhsuldarlıq xeyli artıb.

Mal-qaranın baş sayının dinamik artması heyvandarlıq məhsullarının istehsal həcmini artırmağa imkan verib. Bunu aşağıdakı cədvəldən görmək olar.

**Naxçıvan MR-da əsas heyvandarlıq məhsulları istehsalı (min ton)**

| İllər üzrə | 1990 | 1993 | 2000 | 2001 | 2002 | 2003 | 2007 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|
| Ət (kəsilmiş şəkildə) | 7,1 | 4,0 | 5,3 | 6,4 | 6,9 | 7,1 | 16,0 | 27,6 |
| Süd | 30,7 | 17,0 | 54,2 | 55,3 | 58,9 | 59,5 | 70,0 | 84,0 |
| Yumurta (milyon ədəd) | 57,7 | 29,2 | 45,8 | 42,2 | 42,3 | 43,3 | 52,3 | 73,5 |

Cədvəl məlumatlarından aydın olur ki, 2018-ci ildə muxtar respublikada 27,6 min ton ət, 84 min ton süd və 73,5 milyon ədəd yumurta istehsal olunub ki, bu da 1993-cü illə müqayisədə ət 4 dəfə, süd 2,7 dəfə və yumurta üzrə isə 1,2 dəfə çoxdur. İri buynuzlu mal-qaranın sayı 1 yanvar 2019-cu ildə 113916 başa çatıb ki, bu da 1995-ci illə müqayisədə 2,5 dəfə çoxdur. Qoyun və keçilərin sayı isə həmin dövrdə 2,5 dəfəyə yaxın artıb.

Adambaşına düşən bitkiçilik və heyvandarlıq məhsulları istehsalını aşağıdakı cədvəllərdən aydın görmək olar.

*(Ardı 14-cü səh.)*

# İstehlak bazarında süni qiymət artımı dövlət orqanlarının diqqətində əsas məsələlərdən biri kimi...

**Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasət ilk növbədə əhalinin rifah halının yüksəlməsinə hədəflənib. Bu sahədə əhalinin alıcılıq qabiliyyətinin artırılması prioritet təşkil edir. Daxili bazarın qorunması, inflyasiyanın qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər qiymətlərin nizamlanmasında əhəmiyyətli rol oynayır.**



*"Ölkənin istehlak bazarında qiymət artımının müşahidə olunduğu barədə müxtəlif iddialar mövcuddur, ancaq həmin məlumatlar həqiqəti əks etdirmir"*

## *Azər Badamov: "Qiymət artımı heç də süni amillərlə bağlı deyil, bunun obyektiv səbəbləri də var"*

Etiraf edilməlidir ki, Azərbaycan hökuməti qiymətlərin stabil saxlanması istiqamətində kifayət qədər stimullaşdırıcı tədbirlər həyata keçirir. Sahibkarlara güzəştli kreditlər təklif olunur, vergi yükü əhəmiyyətlə dərəcədə azaldılır. Elə Prezident İlham Əliyev də dəfələrlə öz çıxışında süni qiymət artımının yolverilməz olduğunu qeyd edib. Kimsə qiymətləri süni şəkildə qaldırıbsa, həmin şəxslər aidiyyatı qurumların səyi nəticəsində aşkar olunaraq cəzalandırılıb.

Millət vəkili Azər Badamov bizimlə söhbətində bildirdi ki, ölkənin istehlak bazarında qiymət artımının müşahidə olunduğu barədə müxtəlif iddialar mövcuddur. Ancaq son vaxtlar sosial şəbəkələrdə və saytlarda özünə yer tapan bu cür məlumatlarla, yəni ölkədə qiymət artımının müşahidə olunmasına dair qeyd olunan fikirlərlə razılaşmaq mümkün deyil: "Çünki biz də hər şeydən əvvəl Azərbaycan Respublikasının vətəndaşıyıq. Yəni, biz də istehlakçı, satış şəbəkələrindən müxtəlif məhsulların alıcısıyıq. Ticarət şəbəkələrinə gedərək ərzaq və digər məhsullar alırıq. Mən ixtisasca iqtisadçıyam. Hər hansı məhsul alarkən qiymətləri də təbii ki, müqayisə edirəm. Bu müqayisə zamanı malların qiymətində heç də artım görmürəm. Hazırda ölkənin istehlak bazarında qiymət artımının həyata keçirilməsi üçün əsaslar da yoxdur. Bunu şərtləndirən ən mühüm amil Azərbaycanın milli valyutasının sabit olmasıdır. Artıq neçə illərdir ki, inflyasiya minimum həddədir. Xarici valyutaların, o cümlədən ABŞ dollarının manata nəzərən məzənnəsi sabitdir və manat get-gedə daha da möhkəmlənir. Belə bir şəraitdə hər hansı qiymət artımından danışmaq da düzgün deyil".

Millət vəkili onu da vurğuladı ki, ölkədə on minlərlə ticarət obyekti var. Ola bilsin ki, hansısa satış obyektində hansısa işbaz süni qiymət artımına yol verib. Bunu ümumiləşdirib bütün ölkəyə aid etmək doğru yanaşma deyil axı.

**A.Badamovun sözlərinə görə, qiymət artımı heç də süni amillərlə bağlı deyil, bunun obyektiv səbəbləri də var: "Müəyyən qiymət artımı ilk növbədə idxal olunan məhsulların dünya bazarında qiymətinin artması ilə bağlıdır. Buna misal kimi texnoloji avadanlıqları, gübrəni və sairəni göstərmək olar ki, onların qiymətində olan dəyişiklik də Azərbaycanda istehsal prosesinə öz təsirini göstərir".**

*Günel CƏLİLOVA*

# Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının daha bir uğurlu əməliyyatı Albalılıqda başlayıb Maştağada bitdi - 1 ton narkotik...




**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən kultivasiya yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkar edilməsi və satışı ilə məşğul olan şəxslərin aşkar edilməsi istiqamətində xüsusi əməliyyat tədbiri həyata keçirilib.**

Daxil olmuş məlumat əsasında Biləsuvar rayon sakini, əvvəllər məhkum olunmuş Ağalar Xəlilov paytaxt ərazisində saxlanıb. Onun Xəzər rayonu Albalılıq bağlar sahəsində yaşadığı evə baxış zamanı 13 kiloqram qurudulmuş marixuana və narkotik vasitələrin çəkisini müəyyən etmək üçün istifadə edilən elektron tərəzi aşkar edilərək götürülüb.

İlkin sorğu zamanı A.Xəlilov marixuananı Sabunçu rayonu Maştağa qəsəbəsində əkdiyini, kultivasiya yolu ilə yetişdirəndən sonra satmaq məqsədi ilə yaşadığı evə gətirdiyini bildirib.

Baş İdarə əməkdaşları tərəfindən əməliyyat tədbirləri davam etdirilərək A.Xəlilovun narkotik tərkibli bitkiləri əkdiyi Maştağa qəsəbəsindəki bağ sahəsinə baxış keçirilib. Nəticədə oradan yaş halda çəkisi 1 tona yaxın 168 ədəd çətənə bitkisi də aşkar olunaraq götürülüb.

**Qeyd edilən faktla bağlı Baş İdarədə cinayət işi başlanıb. Saxlanan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbirləri seçilib.**

(Əvvəli 13-cü səh.)

**Naxçıvan MR-da adambaşına bitkiçilik məhsullarının istehsalı (kq)**

| İllər üzrə | 1990 | 1993 | 2000 | 2001 | 2002 | 2003 | 2007 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|
| Taxıl | 105 | 61 | 156 | 150 | 173 | 201 | 212 | 253 |
| Kartof | 8 | 6 | 118 | 131 | 137 | 144 | 156 | 109 |
| Tərəvəz | 65, | 45 | 118 | 131 | 137 | 144 | 156 | 188 |
| Bostan məhsulları | 17 | 3 | 93 | 102 | 109 | 113 | 126 | 85 |
| Meyvə və giləmeyvə | 27 | 25 | 79 | 79 | 78 | 77 | 97 | 123 |
| Üzüm | 361 | 101 | 39 | 38 | 34 | 31 | 36 | 36 |

*(Rəqəmlər statistik materiallar əsasına müəllif tərəfindən hesablanıb)*

Cədvəl məlumatlarının təhlili göstərir ki, 1990-cı illə müqayisədə 2018-ci ildə muxtar respublikada üzümdən başqa digər bitkiçilik məhsulları istehsalında adambaşına artım baş verib. Belə ki, göstərilən dövrdə adambaşına taxıl istehsalı 148 kq, kartof 101 rq, tərəvəz 123 kq, bostan məhsulları 68 kq, meyvə və giləmeyvə 96 kq artıb. Belə bir artım adambaşına heyvandarlıq məhsullarında da baş verib. Bunu aşağıdakı cədvəldən aydın görmək olar.

**Naxçıvan MR-da adambaşına heyvandarlıq məhsulları istehsalı (min ton)**

| İllər üzrə | 1990 | 1993 | 2000 | 2001 | 2002 | 2003 | 2007 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|
| Ət (kəsilmiş şəkildə) | 23 | 12 | 15 | 17 | 19 | 19 | 42,0 | 61 |
| Süd | 100 | 52 | 150 | 152 | 160 | 161 | 191 | 184 |
| Yumurta (milyon ədəd) | 188 | 87 | 127 | 116 | 115 | 117 | 136 | 153 |

Cədvəldən görünür ki, adambaşına heyvandarlıq məhsulları istehsalı da artmaqdadır. Belə ki, 1990-2018-ci illərdə adambaşına ət istehsalı 38 kq, süd istehsalı isə 84 kq artıb. Adambaşına yumurta istehsalı isə, 1993-cü ilə nisbətən 32 ədəd artmasına baxmayaraq, 1990-cı ilə nisbətən 35 ədəd azalıb. Hesab edirəm ki, bu azalmanın əsas səbəbi dövlətə məxsus iri quşçuluq fabriklərinin işini dayandırması olub. Yuxarıda qeyd edildiyi kimi, artıq həm ölkədə, həm də muxtar respublikada bəzi məhsullar üzrə istehlak tələbatı ödənilməyə başlanıb.

Əvvəlki illərdə olduğu kimi, yenə də bitkiçilik və heyvandarlıq məhsullarının əsas hissəsi əhalinin həyətyanı təsərrüfatında istehsal olunub.

# Qurban bayramının bitməyən problemləri - antisanitariya, bu yandan da gün dəyişikliyi...

**Bütün islam aləmində qeyd edilən və Azərbaycanda da dini bayram kimi hər zaman keçirilən Qurban bayramı öz məna və məzmunu, daşıdığı ideya ilə birlik, bərabərlik, yardımlaşma törəni kimi yadda qalır. Ancaq təəssüflər olsun ki, Ramazan bayramında yaşanan bəzi neqativ çalarlar Qurban bayramında da özünü göstərdi.**

***İsmayıl Əhməd:** "Qurban bayramının müsəlman ölkələrində fərqli gündə qeyd edilməsi, bayram namazının fərqli gündə qılınması və qurbanların ayrı-ayrı günlərdə kəsilməsi düzgün deyil"*

Ramazan bayramında əsas problemlərdən biri bayram namazının fərqli günlərdə qılınması oldu. Düzdür, Qurban bayramında bayram namazı bütün məscidlərdə təyin edilən tarixdə qılınsa da, qurban kəsmə mərasimi fərqli günə təsadüf etdi. Bəziləri avqustun 10-da, bəziləri 11-də, insanların xeyli hissəsi isə avqustun 13-də və 14-də qurban kəsdilər. Bu fərqlilik də heç şübhəsiz ki, təsadüfdən qaynaqlanmır, burada müəyyən təmayüllərin təsiri var. İnsanlar meyl göstərdikləri təriqətlərə, o təriqətlərin imamlarına istinad edərək qurbanı fərqli günlərdə kəsdilər. Halbuki, ölkəmizdə Qurban bayramı rəsmən avqustun 12-si və 13-ü idi və bayram namazı da avqustun 12-də qılınıb, qurban kəsmə mərasimi də həmin günə təsadüf etməli idi.

Qurban bayramında yaşanan xoşagəlməz olaylardan biri də qurbanlıq erkək toğluların, qoyunların gəlin kimi bəzədilməsi idi ki, bu "dəb" də son iki-üç ildir cəmiyyətimizdə epidemiya kimi yayılıb.

Məlum olduğu kimi, başında gəlinlik fatası, ayağında tüldən ayaqqabı, buynuzundan isə al qırmızı lent sallanan qoyunlar kifayət qədər idi. Qeyd etdiyimiz kimi, Qurban bayramı ərəfəsində bu tip görüntülərin az qala ənənə halı alması dinşünaslar tərəfindən də normal qarşılanmır. Bayram ərəfəsində qurbanlıq qoçların gəlin kimi bəzədilməsi anormal hal kimi qəbul edilir. Yəni din xadimlərinin bu məsələyə münasibəti birmənalıdır, onlar qurbanlıq qoyunların bəzədilməsini məqbul hesab etmir.

Xüsusilə qurbanlıq heyvanın bu cür bəzədilməsini nişanlı oğlan tərəfi edir. Qız qapısına qurbanlıq heyvan apararkən onu bu şəkildə bəzəyirlər. Kimisi isə heyvanı alan kimi başına xına qoyub, qırmızı paltara bürüyür. Dizaynerlərin sözlərinə görə, bayram günlərində quzu bəzədilməsi ilə bağlı sifarişləri çoxalıb.

Qurban bayramında heyvanlar Allah yolunda kəsilir və bu, dini mahiyyət kəsb edir, bir ibadətdir. Qurbanlıq heyvanın nişanlı cütlüklər arasında qız evinə aparılması onu həqiqi mahiyyətindən uzaqlaşdırır.

Bundan başqa, bəzi rayonlarda, əsasən də yolkənarı yerlərdə qurbanlıq heyvanların kəsimində qətiyyən sanitariya qaydalarına əməl edilmirdi. Uşaqların gözləri qarşısında qurbanlıq heyvanların kəsilməsi isə daha dəhşətli idi.

Tanınmış ilahiyyatçı İsmayıl Əhməd "Bakı-Xəbər"ə bildirdi ki, bu əziz bayramda belə hallara yol verilməsi düzgün deyil. "Qurban bayramının müsəlman ölkələrində fərqli gündə qeyd edilməsi, bayram namazının fərqli gündə qılınması və qurbanların ayrı-ayrı günlərdə kəsilməsi düzgün deyil. Qurban bayramı günü Qəməri təqvimi ilə zilhiccə ayının 10-cu günüdür. Bu da ayın 11 idi. Yəni avqustun 11-də Məkkədə müsəlmanlar bayram namazı qılıb qurbanlarını kəsdilər. Həccin vacib ayinlərindən biri yerinə yetirildi. Amma bir sıra ölkələrdə, o cümlədən də İran, Azərbaycan və İraqda bayram avqustun 12-də qeyd edildi. Qurban bayramı Məkkədə hansı gündə qeyd edilirdisə, bütün müsəlman aləmində də həmin gün olmalı idi".

Bayramlıq qoyun və qoçların gəlin kimi bəzədilməsinə gəlincə, İ.Əhməd bunun da yolverilməz olduğunu qeyd etdi. Bu halın səviyyəsiz bir hərəkət olduğunu deyən İ.Əhmədin sözlərinə görə, bu neqativ hal Azərbaycanda və Pakistanda yaşanır. "Heyvanların xüsusilə bəzədilməsinin, onların gəlin kimi geyindirilib süslənməsinin islam dini ilə heç bir əlaqəsi yoxdur. Bu, insanların bayrama olan baxışlarının son dərəcə səviyyəsiz və gülünc olmasının təzahürüdür. Bu insanlar üçün artıq bayram da qazanc vasitəsidir, eyni zamanda da onlar bu bayramdan özlərini göstərmə və əyləncə kimi istifadə edirlər. Əslində, Qurban bayramı paylaşmaq bayramıdır. Yəni ehtiyacı olanlara qurbanlıq heyvanların ətindən ehsan etmək törənidir.



*"Heyvanların xüsusilə bəzədilməsinin, onların gəlin kimi geyindirilib süslənməsinin islam dini ilə heç bir əlaqəsi yoxdur"*

Çox təəssüf ki, bizdə bu ənənə böyük əksəriyyətin həyatında tam başqa məqsəd daşıyır. Bu, insanların "mədəniyyət"indən irəli gəlir, bunun dinlə heç bir əlaqəsi yoxdur.

Dindarlar vaxt tapsalar, bu sahədə təbliğat aparsınlar, insanları bununla bağlı maarifləndirsinlər. Əgər edə bilirlərsə, bunu etsinlər. Dindən danışmağa söz də var, mövzu da. Əsas odur ki, bu insanları xurafatdan çıxarsınlar. Bunun üçün çalışmaq və bunu istəmək lazımdır" - deyə İ.Əhməd vurğuladı.

***İradə SARIYEVA***

# Lerikin kəndlərində qanunsuz çəpərləmələr və "həx" yığımı...

**Məlum həqiqətdir ki, artıq hərtərəfli inkişafı ilə Azərbaycan bütün dünyanın diqqətini özünə cəlb edə bilib. Amma Lerik rayonda bəzi səlahiyyət sahiblərinin gözlərini rüşvət pərdəsi tutduğu üçün sanki onlar bu inkişafı görmək istəmirlər.**




Açığını deyim ki, Lerikdə vəzifə başında duranların çoxu ölkə başçısı İlham Əliyevin xalqın xoş güzəranı naminə qurub-yaratdıqlarına xələl gətirməkdən savayı bir iş görmür. Onların fəaliyyətsizliyi rayonda hərc-mərclik yaradır, hətta camaatı əyri yollara aparır.

Rayonun Hamarat, Daster, Bradi, Aküşəpeştə kəndləri təbiətin ən füsunkar guşəsində yerləşir. Bu yerlərin kəklikli yamacları, yaşıl meşə zolaqları, bənövşə qoxulu dərələr, sərin sulu bulaqları göz oxşayır. Daha doğrusu, təbiətin hər yaratdığı bu dörd kənddə daha gözəldir. Lakin təəssüf ki, rayonda olan özbaşınalıqdan istifadə edən bəzi nadan insanlar təbiətin sinəsinə sağalmaz yaralar vururlar. Yəni yuxarıda göstərdiyim təbiətin yaraşığı olan yerləri qanunsuz halda çəpərə salırlar. Elə bir vəziyyət yaranıb ki, indi dövlətin saxladığı örüşlərə də yaxın düşmək olmur. Vaxtilə 30 nəfərin istifadə etdiyi bulaq zəbt olunduğu üçün indi bir nəfərə məxsusdur. Çəpərlərin sayı o qədər çoxdur ki, bir kənddən digərinə gedən yollar bağlanıb. Meşə zolaqlarını, dərə kənarlarını hasara salanlar buralardan amansız halda istifadə edirlər. Qazanc xətrinə təbiətdə bitən yüzlərə cavan ağacın ömrünə son qoyulur. Halbuki, sovet dövründə dediyim həmin meşələrin əzgili, alçası, armudu, itburnusu və digər dərman bitkiləri ilə böyük ailənin ruzisi tapılardı.

Ümumiyyətlə, kəndlərin ərazilərində olan qanunsuz çəpərlər çox ağır dərddir. Çəpər sahiblərinin dediyinə görə, onlar tutduqları hər hansı əraziyə görə yuxarılara "həx" ( talış sözüdür, rüşvət mənasında deyilir) verirlər. Mənim deməyim odur ki, vaxtında əsaslı tədbir görülməsə, sonradan bu qorxulu uçurumdan qurtarmaq qeyri-mümkündür.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

№ 141 (4039) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

15 AVQUST 2019-cu il

www.baki-xeber.com

# Dünyanın ən iri pinqvininin qalıqları tapıldı - boyu 1,6 metr, çəkisi isə 80 kq...



**Yeni Zelandiyada dünyanın ən iri pinqvininin qalıqları aşkar edilib. Trend-in məlumatına görə, qalıqlar bir qrup arxeoloq tərəfindən Vaypara şəhəri yaxınlığında aparılan qazıntılar zamanı tapılıb.**

Qeyd olunur ki, həmin pinqvinin boyu 1,6 metr, çəkisi isə 80 kiloqram olub. Arxeoloqlar aparılan tədqiqata əsasən, bu quşun Paleosen dövründə - 66 milyon il öncə yaşadığını qeyd edirlər.

Bu gün yaşayan ən iri pinqvindən 40 santimetr böyük olan nəhəng pinqvinə "Crossvallia waiparensis" adı verilib.

## Okean dərinliklərində 200 gözü olan yeganə canlı...

**Okeanda yaşayan canlılar, adətən, digər heyvanlardan göz quruluşları ilə fərqlənir. "Milli.Az" xəbər verir ki, bu canlılar arasında dəniz molyuskları ən qəribə görmə sistemlərinə malikdir.**



Belə ki, cütdərili canlılardan olan molyuskların 200 gözü var. Bu gözlərin hər biri işığı qəbul edən almaz yerinə güzgüdən istifadə edir. Bioloqlar 1960-cı ildən etibarən batıq güzgülərin quanin kristalından əmələ gəldiyi bilgisinə sahibdir. Quanin kristalı balığın pulcuqlarından dəvə dərisinə qədər bir canlıda rast gəlinən yüksək əksetdirici xüsusiyyətə sahib bir maddədir. Elm adamları testdən keçiriləcək nümunələri sürətli şəkildə donduran və quruluşun pozulmasının qarşısını alan bir mikroskop sayəsində dəniz molyuskunun gözünə daha yaxından baxmaq fürsəti əldə edib. Bunun nəticəsində kiçik güzgülərin və kristalların mozaikası görüntülənib. Hər güzgü qatlı quruluşa sahibdir və işıq dalğalarının ölçülərini məkana uyğun şəkildə əks etdirir, həmçinin, onlara ətraflarının görüntüsünü verir. İnsanın gözləri bir kamera kimi işləyir. İşığı torlu qişaya fokuslayan bir linzadan istifadə edir. Dəniz molyuskları isə başqa bir texnologiya ilə bənzərdir: Nyuton tərəfindən düzəldilən növünün ilk əks etdirəni olan teleskopa. Araşdırmaya daxil olmayan nevroloq Qaspar Yekeli biologiya və optikanın birləşməsini "bu gözlərdə Nyuton və Darvin bir araya gəlib" cümləsi ilə ifadə edib. Bir dəniz molyuskunun dünyanı necə gördüyünü tam olaraq bilməyimiz çətindir, ancaq mütəxəssislərə görə, molyuskların üzərkən hərəkətlərinə nəzarət etmələri üçün kəskin görmə qabiliyyətinə ehtiyacı var. Tək torlu qişa qarşımızdakı mənzərənin dəqiq görüntüsünü verərkən, dəniz molyusklarının cüt torlu qişası kənarların da daha yaxşı görüntüsünü əldə etməyi təmin edir. Bu periferik görmə nəyin sabit, nəyin hərəkətdə olduğunu göstərir. Nəticə olaraq, dəniz molyuskları özünün bənzərsiz göz quruluşu ilə təkamülə uğrayıb. İnsanlar da bundan istifadə edərək görüntüləmə sahəsindəki optik cihazlar üçün yeni texnologiyalar kəşf edə bilər. Hazırda isə dəniz molyusklarından zərgərlik, bəzək və mətbəxdə istifadə edilir.


## Elan

Musayev Rza Qəmbər oğlunun adına verilmiş, Lökbatan qəsəbəsi, 2-ci massiv, ev 33 ünvanında yerləşən fərdi evin Dövlət Reyestrindən çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Kiçik Dəhnə kənd sakini Ağasıyev Elman Niyazi oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 812 saylı torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Hüseynova Solmaz Yusif qızına məxsus, Bakı şəhəri, Səbail rayonu, Bayıl qəsəbəsi, Gülbala Əliyev küçəsi, dalan 2, ev N3, mənzil 2 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Rəcəbova Firəngiz Ağabəy qızının adına olan, Bakı şəhəri, Sabuncu rayonu, Maştağa qəsəbəsində yerləşən JN 7572 D KOD 00500 45 nömrəli 0.06 ha torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Xəlilova İlhamə Oktay qızının adına məxsus, Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsi, Cəfər Xəndam küçəsi, döngə 1 ünvanında yerləşən yaşayış sahəsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Əliyeva Güllü Yəhya qızına məxsus, Bakı şəhəri, N.Tusi küçəsi, bina 6, mənzil 45 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mahmudova Firəngiz Ağakişi qızının adına məxsus, Bakı şəhəri, M.Sübhi küçəsi, ev 144 ünvanına məxsus çıxarış itdiyi üçün etibarsız sayılır.

Ağalarov İsmayıl Ağacavad oğluna məxsus şəxsiyyət vəsiqəsi, "Audi A7" markalı, 10 XZ-075 avtomobilin texniki şəhadətnaməsi, sürücülük vəsiqəsi, xidməti vəsiqə və müxtəlif banklara məxsus olan bank kartları itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Gözləntilərinizin sayını və səviyyəsini bir qədər azaldın. Diqqətə layiq olan işə başlayaraq çalışın. İnformasiyanın təhlili, təcrübənin artırılması, qısa səfərlər üçün əlverişli gündür. Yaşam arealını qaydaya salın.


**Buğa** - Cari situasiyada doğru istiqaməti müəyyənləşdirin. Perspektiv məsələləri seçin, fəaliyyətinizi müxtəlifləşdirin. Çətin məsələləri həll edin, çoxdan bəri narazılığınıza səbəb olan yarımçıq işi başa vurun.


**Əkizlər** - Yorulubsunuzsa və yetərincə istirahət etmirsinizsə, maraqlandığınız, bəyəndiyiniz işlə məşğul olun. Lakin yeni planları gerçəkləşdirmək istəyirsinizsə, tələbatla qarşılaşacağınızı bilin.


**Xərçəng** - Eyni vaxtda bir neçə iş görməyə hazırlaşın. Poçt "yeşik"ləri, kabinetlər və telefon zənglərinin arasında vaxtınızı bölüşdürmək istəyirsinizsə, alınmayacaq. Hər işə gərəkli vaxtı ayırın.


**Şir** - Vurnuxma, problem və çətinliklərin az olmayacağı gündür. Yerinizdə olun, çağırışlara tez cavab verin. Reaksiyanız süst olmasın. Ehtiyac yaranarsa, sürətli qərar verin. Heç nəyi mürəkkəbləşdirməyin.


**Qız** - Təəssürat və xəbərlərin sürətlə dəyişməsinə rəğmən gün sizi sevindirəcək. Maddi məsələlərdə yaxşı perspektivlər var. Sadəcə, onları görərək dəyərləndirməyə çalışın. Ailədə mühüm müzakirə başlaya bilər.


**Tərəzi** - Mütəhərrik, aktiv, ünsiyyətə meylli olun. Zərurət yaranarsa, alınan informasiyanı təhlil edin, rabitələrlə əlaqələri bərpa edin, məktublara cavab verin. Günün ilk yarısında formalaşan planlar gözlənilən nəticəni verəcək.


**Əqrəb** - Enerjili, qətiyyətli, əzmli olsun. Niyyətlərlə maraqlar sizi fərqli istiqamətlərə apardığından fikirlərdə qarışıqlıq yarana bilər. Gərginlik artır, başladığınız işi normal şəkildə başa vura bilmirsiniz.


**Oxatan** - Tərəfdaşlıq münasibətlərində yeniliklərin təşəbbüskarı olun. Qarşı tərəfi də daha aktiv davranmağa vadar edin. Yeni layihələr olacaq, amma onlar müzakirə və imkanların nəzərdən keçirilməsi mərhələsindədir.


**Oğlaq** - Günün ilk yarısı yetərincə effektiv deyil. Konkret nəticələr gözlədiyiniz layihə və ya işi planlaşdırmayın. Ünsiyyət və məlumatların alınmasında məhdudiyyətlərin sayını artırmayın.


**Dolça** - Bir qədər "nəfəs almaq", əldə olunmuş mövqelərdə möhkəmlənmək, cari işləri tələsmədən görmək olar. Qarşınızda duran məqsədləri dəyərləndirin, aldığınız təklifləri təhlil edin, planları yenidən nəzərdən keçirin.


**Balıqlar** - Mühüm qərarların qəbulunu şərtləndirməyən kiçik işlərə və qayğılara xüsusi diqqət yetirin. Başqasının əməllərinə görə məsuliyyət daşımayın, sənədləşdirmədə qaydaya riayət edin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Qədim türk yurdunda 10 milyon illik tapıntı...



**Arxeoloqlar Krımdakı Qız-Aul nekropolunun dağıntıları altından 10 milyon il yaşı olan balinanın qalıqlarını tapıblar.**

"Axar.az" xəbər verir ki, bu barədə "Arxeologiya" fondunun direktoru Oleq Markov məlumat verib. Onun sözlərinə görə, qalıqları tapılan balina hazırda planetdə yaşayan indiki balinaların əcdadı olub və əvvəllər Sarmat dənizi adlandırılan ərazidə yaşayıb. Markov deyib ki, arxeoloqlar heyvanın qalıqlarını tam təsadüf nəticəsində tapıb.

*Hazırladı: Ramil QULİYEV*


**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.